# 18 oktyabr Müstəqilliyin Bərpası Günüdür



*İndi Ermənistan adlanan ərazi, Qərbi Azərbaycan-İrəvan mahalı, Göyçə mahalı, Zəngibasar mahalı tarixi Azərbaycan torpağıdır.*

**Heydər ƏLİYEV**

*Bu gün biz yaxşı bilirik ki, Ermənistan dövləti tarixi Azərbaycan torpağında yaranıb. Zəngəzur, Göyçə mahalı, İrəvan bizim doğma torpaqlarımızdır. Biz qayıdacağıq.*

**İlham ƏLİYEV**

Bir parça daş vətəndir!

*Mahirə NAĞIQIZI*


# YURDUN SƏSİ

№ 13 Oktyabr 2025-ci il





**ADPU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru, AYB-nin üzvü, Prezident təqaüdçüsü, Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin Müşahidə Şurasının üzvü, filologiya elmləri doktoru, professor Mahirə Hüseynova 1960-cı il noyabr ayının 4-də Naxçıvan Muxtar Respublikasının (indiki Babək rayonu) Sust kəndində anadan olmuşdur. 1968-ci ildə Naxçıvan Muxtar Respublikasının Naxçıvan rayonu (indiki Babək rayonu) Xalxal kənd səkkizillik məktəbinin birinci sinfinə daxil olmuş, yaşayış yerini dəyişməklə əlaqədar olaraq, 1978-ci ildə Abşeron rayonu Mehdi Hüseynzadə adına Novxanı qəsəbə 1 saylı orta məktəbi bitirmişdir. 1980-ci ildə V. İ. Lenin adına Azərbaycan Pedaqoji İnstitutunun (indiki ADPU-nun) Filologiya fakültəsinə qəbul olmuşdur. Təhsil illərində fəallığı ilə seçilərək fakültədə keçirilən bütün tədbirlərdə yaxından iştirak etmiş, həm tələbə yoldaşlarının, həm də müəllim heyətinin dərin rəğbətini qazanmışdır. 1984-cü ildə ali təhsilini fərqlənmə diplomu ilə başa vurmuşdur. Elə həmin ildən təyinatla əvvəlcə Abşeron rayonu Mehdiabad qəsəbəsindəki 1 saylı orta məktəbdə, daha sonra isə Bakı şəhəri Nərimanov rayonu G.Əsgərova adına 43 saylı MLK-da ixtisası üzrə pedaqoji fəaliyyətə başlamışdır. 2003-cü ildə "İlin nümunəvi müəllimi" Respublika müsabiqəsinin qalibi olmuş, I dərəcəli diplom almışdır. 2004-cü ildə Təhsil Nazirliyi tərəfindən "Respublikanın qabaqcıl təhsil işçisi" adına layiq görülmüş, qızıl döş nişanı ilə təltif edilmişdir. 2007-ci ildə "Qızıl qələm" media mükafatı laureatı, "İlin alimi" media mükafatı laureatı və s. mükafatlara layiq görülmüşdür.**

**2008-ci ildən Azərbaycan Dövlət Pedaqoji Universitetinin Müasir Azərbaycan dili kafedrasının müəllimi kimi fəaliyyətə başlamış, 2014-cü ildən baş müəllim, 2015-ci ildən həm Müasir Azərbaycan dili kafedrasının dosenti, həm də həmin ildən kafedra müdiri vəzifəsinə təyin olunmuşdur. 2018-ci ildən Müasir Azərbaycan dili kafedrasının professoru olmuşdur. Həmin ilin dekabr ayının 10-dan Azərbaycan Dövlət Pedaqoji Universitetinin Filologiya fakültəsinin dekanı vəzifəsinə seçilmişdir. 2021-ci ildən Azərbaycan Dövlət Pedaqoji Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru vəzifəsində çalışır.**

**ADPU-nun müəllim və tələbələrinin Orduya dəstək kompaniyasında fəal iştirakını təşkil etdiyinə görə 2020-ci il 4 noyabr Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyinin Fəxri Üzvü seçilmişdir.**

**2021-ci ildə "Səməd Behrəngi" beynəlxalq mükafatını almış və həmin ildə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Əməkdar müəllim" fəxri adına layiq görülmüşdür.**

**M.Hüseynova Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondunun "Elm-Təhsil İnteqrasiyası" məqsədli qrant müsabiqəsinin (EİF/MQM/Elm-Təhsil-I-2016-I(26)) qalibi olmuşdur. "Türk dilləri dialektlərinin qarşılıqlı inteqrasiyası" adlı layihə çərçivəsində Respublika daxilində və xaricdə xeyli məqalələr yazmış və dərc etdirmişdir. Professor Mahirə Hüseynova "Linqvistika problemləri", "Mahmud Kaşğarlı" beynəlxalq elmi jurnallarının təsisçisi və baş redaktoru, "Azərbaycan dili və ədəbiyyatın tədrisi", "Türk filologiyası", "Euroasia Journal of Sciences & Humanities" jurnallarının redaksiya heyətinin üzvü, "Elmi iş" jurnalının, "Yurdun səsi" qəzetinin, "İz" jurnalının redaktorudur.**

**Professor Mahirə Hüseynova 2021-ci ildən Ali Attestasiya Komissiyasının filologiya və pedaqogika elmləri üzrə ekspert şurasının sədridir.**

**Elmi araşdırmaları ilə diqqəti cəlb edən Mahirə Hüseynova 2001-ci ildən Qərbi Azərbaycanın Dərələyəz mahalı üzrə tədqiqatlar aparmışdır. Həmin mahalın aşıq və el şairlərinin yaradıcılığı, onomastik vahidləri haqqında xeyli material toplamış, 2012-ci ildə başladığı işi uğurla davam etdirərək filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsinə layiq görülmüşdür. Bu məqamda o, həm görkəmli dilçi alim Həsən Mirzəyevin filoloji görüşlərini, həm də Dərələyəzə aid olan dil faktlarını, poetik nümunələrini araşdırmışdır. Elə bunların nəticəsidir ki, o, 2017-ci ildə "XIX-XX əsr Azərbaycan aşıq və el şairlərinin yaradıcılığının dil, üslub xüsusiyyətləri" adlı dissertasiyasını yazmış və onu uğurla müdafiə edərək filologiya elmləri doktoru elmi dərəcəsini qazanmışdır. Alimin araşdırmalarının nəticəsi olaraq xeyli sayda kitabı işıq üzü görmüşdür.**

**Azərbaycan dilçiliyinin müxtəlif sahələri üzrə araşdırmaları ilə seçilən Mahirə Hüseynova 28 elmi kitabın, o cümlədən monoqrafiya, dərs vəsaiti, metodik vəsait, 5 proqramın və 16 bədii (şeirlər) kitabın müəllifidir. Alimin Respublikanın nüfuzlu jurnallarında (o cümlədən xarici mətbuatda), qəzet və digər mətbu orqanlarda 400-ə qədər elmi məqaləsi çap olunmuşdur.**

# Baş redaktordan



**Əziz oxucular! Bildiyimiz kimi, Ermənistan minilliklər boyu Qərbi Azərbaycanda yaşamış azərbaycanlıların zəngin mədəni irsini, qədim yaşayış məskənlərini, məscidlərini, ziyarətgahlarını və qəbiristanlıqlarını məhv etmişdir. Ermənistanın bu destruktiv addımları həmin ərazilərdən Azərbaycan xalqının izini silmək və regionun tarixini yenidən yazmaq məqsədi daşımışdır.**

Məhz 2022-ci il dekabr ayının 24-də Qərbi Azərbaycan İcmasının inzibati binasında yaradılan şəraitlə tanış olarkən bir qrup icma üzvü önündə Prezident İlham Əliyev bu haqlar kontekstində çıxış edərək İcmanın perspektiv vəzifələrindən birini xatırlatdı: "Qərbi Azərbaycanlıların hüquqları bərpa edilməlidir və onlar öz doğma torpaqlarına qayıtmalıdırlar". Qərbi Azərbaycan İcmasının üzvlərinə ümumilikdə Qərbi Azərbaycanlıların tarixi torpaqlarına qayıtmasınadək hər zaman aktual olmalı məsələdə bütün azərbaycanlılara səfərbərlik çağırışı kimi səslənən bu fikrində cənab Prezident xalqımızı hüquqi-mənəvi varislər olaraq vahid məqsəd uğrunda birləşməyə səsləyirdi.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) Beynəlxalq əlaqələr üzrə prorektorluğunun nəzdində fəaliyyət göstərən Qərbi Azərbaycan Araşdırmalar Mərkəzinin açılması bu yolda görülən ən uğurlu işlərdən biridir. Mərkəzin əsas fəaliyyət istiqamətləri elmi tədqiqat və maarifləndirmə işinin təşkilindən ibarət olsa da bu mərkəz Qərbi Azərbaycanla bağlı məşğul olan bütün dövlət və qeyri-dövlət strukturları ilə əlaqələrin qurulması və koordinasiya edilmiş şəkildə fəaliyyət göstərilməsini nəzərdə tutur. Xüsusilə də azərbaycanlıların ermənilər tərəfindən öz yurdlarından kütləvi surətdə zorla köçürülməsi ilə bağlı aşağıdakı tarixi mərhələlərin öyrənilməsi ilə məşğul olmaq mərkəzin işinin əsas hissəsini təşkil edir.

2020-ci ildə Vətən müharibəsində qazanılmış zəfər Qərbi azərbaycanlılarda da böyük ruh yüksəkliyi yaratmış və onların daha mütəşəkkil qaydada fəaliyyət göstərməsinə imkan vermişdir. Qərbi Azərbaycan məsələsi artıq beynəlxalq gündəliyə daxil edilmişdir. Və qayıdış reallaşana qədər bu məsələ Azərbaycan gündəliyindən çıxmayacaqdır.

Təsadüfi deyil ki, XXI əsri informasiya və texnologiya əsri adlandırırlar. Doğrudan da artıq hədəfə doğru irəliləmək üçün informasiya cəbhəsində öndə getməlisən. Qarabağ işğaldan azad edildikdən sonra Azərbaycan xalqı qarşısında yeni hədəf müəyyənləşib - Qərbi Azərbaycana Qayıdış! Bu yolda bizim informasiya ruporlarına, sosial şəbəkə seqmentlərinə, jurnallara, saytlara və qəzetlərə ehtiyacımız var idi. "Yurdun səsi" də məhz bu zərurətdən yaranmışdı.

Zəngin tarixi və ənənələri olan Azərbaycan milli mətbuatı sıralarını genişləndirərək 1 il öncə "Yurdun səsi" adlı yeni bir qəzetlə sizin görüşünüzə gəlmişdik. Biz ənənəyə sadiq qalmaqla yenilikçiliyi seçirik. Şübhəsiz ki, Azərbaycan milli mətbuatının zəngin ənənələri heç vaxt unudulmamalı daha da inkişaf etdirilməlidir. Bu ənənələrin əsası Azərbaycanın ən parlaq ziyalıları Əlimərdan bəy Topçubaşov, Əhməd bəy Ağayev, Həsən bəy Zərdabi, Cəlil Məmmədquluzadə, Ömər Faiq Nemanzadə, Məmməd ağa Şaxtaxtinski kimi ziyalılarımız tərəfindən qoyulub. İlk mətbuatımızın yaradıldığı dövrdə qəzet çap etməyin şərtləri çox ağır idi. Çar Rusiyasının yerli canişinlərindən icazə almaq, nəşrin dövriliyini təmin etmək üçün maddi imkanlar, ən əsası isə oxucu kütləsi qazanmaq kimi qayğıları var idi. Həmin dövrdə mətbuat yalnız kağız daşıyıcıların üzərində yayımlanırdı. Lakin müasir dövrün tələbləri başqadır. Demək olar ki, əksər ölkələrdə kağız daşıyıcıları üzərindən qəzet istehsalı artıq aradan qalxmaq üzrədir. Lakin biz "Yurdun səsi"nin məhz kağız daşıyıcıları üzərindən çap olunmasını zəruri hesab edirik. Çünki bu tarixi bir davanın vacib missiyasına hesablanmış nəşrdir. Hesab edirəm ki, Qərbi Azərbaycanla bağlı yaranan bu qəzet ictimaiyyətin, əsasən də gənc nəslin məlumatlanmasına böyük töhfə verəcəkdir. Gənclər işğala qarşı sona qədər məğrurcasına vuruşan İrəvan xanını tanımalı, onu sevməlidir. Bunun üçün biz qəzet platformasından istifadə etməyi vacib sayırıq. Bu gün "Yurdun səsi" gənc nəsillə birbaşa təmas edir və birgə layihələr keçirir. Biz zəngin tarixə və əsrarəngiz gözəlliyə malik Qərbi Azərbaycanın gənc nəslə tanıdılması və sevdirilməsini qarşımıza məqsəd qoymuşduq. Və bir ildir ki, bu missiyanı layiqincə yerinə yetiririk.

Qarşımızda yüz illərlə saxta tarix aşılanmış, mifoloji arzularla yaşayan riyakar bir etnik qrup var, bizim şərti olaraq erməni adlandırdığımız haylar. Eyni zamanda xristiyan güc mərkəzlərinin Türk dünyasının bütövlüyünü pozmağa yönəlmiş xristian buffer zolağının yaradılması layihəsinin gerçəkləşməsi fonunda süni şəkildə yaradılmış Ermənistan "dövləti". Bu dövlət birmənalı şəkildə Azərbaycan torpaqlarında yaradılıb. Qərbi Azərbaycanda - indiki Ermənistan ərazisində 1905-1906, 1918-1920, 1948-1953 və 1987-1991- ci illərdə sistemli və total şəkildə etnik təmizləmə həyata keçirilmiş və beləliklə, Ermənistanda bir nəfər belə azərbaycanlı qalmamışdır. Bu etnik təmizləmə böyük humanitar faciə olmaqla yanaşı, 1920-ci ildə Qərbi Zəngəzurun Azərbaycandan alınaraq Ermənistana verilməsi ilə Azərbaycanın əsas hissəsinin onun ayrılmaz hissəsi olan Naxçıvanla quru əlaqəsini kəsmək kimi mənfur geosiyasi məqsədə də xidmət etmişdir. Qərbi Azərbaycandan sonuncu deportasiya zamanı çıxarılmış soydaşlarımız Azərbaycanın bir çox ərazilərində, eləcə də Naxçıvanın rayon və kəndlərində məskunlaşmışlar. Lakin biz öz tarixi torpaqlarımıza qayıtmaq istəyirik! Biz bunu necə gerçəkləşdirəcəyik? Müzəffər Ali Baş Komandanın İlham Əliyevin dediyi kimi, biz topla tüfənglə deyil, öz elmimiz, zəkamız və yurdsevərliyimizlə Qərbi Azərbaycana qayıdacağıq. Biz buna inanırıq! "Yurdun səsi" bu ad tasadüfən seçilməmişdi. Bizim bu həqiqətləri dünyaya çatdırmaq üçün YURDUMUZUN SƏSİNƏ ehtiyacımız var idi. Bir il öncə ilk sayı işıq üzü görən "Yurdun səsi" qəzetinin missiyası Qərbi Azərbaycana qayıdışın ruporuna çevrilmək, bu məqsədə xidmət etməkdir. Qərbi Azərbaycanla bağlı yazılan nəinki kitab və monoqrafiya, hətta hər kiçik məqalə çox önəmli və dəyərlidir. Qərbi Azərbaycanın tarixini, mədəniyyətini, flora və faunasını, mətbəxini, maddi və qeyri-maddi mədəni irsini öyrədən, təbliğ edən və gənc nəslə çatdıran yazıların qəzetdə yer alması oxucuda böyük maraq oyadır. Eyni zamanda qəzetdə elmi-publisistik və kütləvi oxucu üçün nəzərdə tutulmuş məqalələrin, araşdırmaların nəşri gənc tədqiqatçılar üçün etibarlı mənbə hesab oluna bilər. "Yurdun səsi" qəriblikdə həsrətlə yolmuzu gözləyən Qərbi Azərbaycanın səsidir.

Bütöv Azərbaycanın yenilənməsi, itirilən tarixi torpaqların geri qaytarılması müxtəlif tarixi dövrlərdə bu dövlətə rəhbərlik edən heç də bütün sərkərdələri düşündürən məsələ olmamışdır. Məlum məsələdir ki, zaman-zaman bu dövlətin torpaqları yadellilər tərəfindən işğala məruz qalmış, əraziləri qəsb olunmuşdur. Bu da günümüzdəki xəritəmizdə əks olunan Azərbaycan dövlətinin əraziləri ilə nəticələnmişdir.

Dəyərli oxucular, bu gün bir yaşını qeyd edən "Yurdun səsi" qəzeti yaşından asılı olamayaraq, hər bir oxucunun diqqətini cəlb edəcək maraqlı tarixi faktların da əks olunduğu məqalələrə yer verir. Bizdən ayrı düşən bir parçamız olan Qərbi Azərbaycan gerçəklikləri bu gün gənc nəslə "Yurdun səsi" vasitəsilə çatdırılır.

Biz inanırıq ki, Qərbi azərbaycanlılar təhlükəsiz və ləyaqətli şəkildə öz doğma yurdlarına qayıdacaq və bölgədə davamlı sülh bərqərar olacaqdır. Və bu sevindirici xəbəri "Yurdun səsi" oxuculara çatdıracaq.

# Professor Mahirə Hüseynovanın ictimai fəaliyyəti Qərbi Azərbaycana qayıdış kontekstində







**Əməkdar müəllim, Prezident təqaüdçüsü, şairə, professor Mahirə Hüseynova elmi-ədəbi, ictimai-mədəni palatformalarda geniş fəaliyyətə malik bir şəxsiyyətdir. Onun çoxşaxəli yaradıcılıq diapazonunun səciyyəvi xüsusiyyətlərinə görə aşağıdakı kateqoriyaya ayırmaq olar.**

**1) Elmi**
**2) Ədəbi**
**3) İctimai**

Professor Mahirə Hüseynovanın elmi-ədəbi fəaliyyəti barədə çox saylı tədqiqat materiallarını, məqalə və kitabları nəzərə alaraq onun ictimai fəaliyyəti haqqında yazmaq qərarına gəldik.

Professor Mahirə Hüseynovanın ictimai fəaliyyətinin əsas ana xəttini Qərbi Azərbaycana qayıdış platforması təşkil edir. Onun bu istiqamətdəki fəaliyyətini iki mərhələyə bölmək olar. Birinci mərhələ onun ictimai məzmun daşıyan elmi fəaliyyətidir. Beləki , M.Hüseynovanın elmi fəaliyyətinin əsas istiqamətlərindən biri də məhz Qərbi Azərbaycana həsr edilib. Onun namizədlik dissertasiyası "Həsən Mirzəyevin yaradıcılığında filologiya məsələləri" mövzusunda dissertasiyası və Qərbi Azərbaycan folkloru mövzusuna həsr edilmiş ilk doktorluq işi olan "XIX-XX əsr Qərbi Azərbaycan aşıq və el şairlərinin yaradıcılığının dil və üslub xüsusiyyətləri (Dərələyəz mahalı üzrə)" dissertasiyası da ictimai məzmun daşıyır. Onun ictimai məzmun daşıyan elmi irsi barədə söhbət açarkən qeyd etməliyik ki, Qərbi Azərbaycanın toponimlərinə həsr edilmiş aşağıdakı elmi əsərləri və məqalələri də xüsusi səciyyə daşıyır.

Qərbi Azərbaycan paleotoponimləri Azərbaycan türkünün etnoyaddaşın ən möhtəşəm abidəsi kimi.

İndiki Ermənistanda türk-Azərbaycan mənşəli toponimlərin paralelləri.

İndiki Ermənistanda Azərbaycan mənşəli paleotoponimlərdə baş vermiş fonetik hadisələrin linqvistik xüsusiyyətləri.

Qərbi Azərbaycanın türkmənşəli toponimlərində paleodialekt və şivə elementlərinin linqvistik xüsusiyyətləri.

Toponimlər xalqın tarixi ünvanıdır.

Qədim Türk- Azərbaycan ruhunu özündə yaşadan Dərələyəz toponimləri.

Ermənilərin Dərələyəz mahalında ölü kəndlərə çevirdikləri coğrafi adlarımız əbədiyyət tariximizdir.

Qərbi Azərbaycana məxsus toponimlərin araşdırılması da Qərbi Azərbaycana qayıdış prosesinin tərkib hissəsidir. O, toponimləri müqayisəli təhlil metodologiyası ilə üç kontekstdən araşdırır.

**1) Tarixi**
**2) Coğrafi**
**3) Linqvistik**

Professor M.Hüseynovanın qədim yurd yerimiz olan Qərbi Azərbaycan toponimlərinin elmi metodoloji baxımdan düzgün araşdırılması, gənc nəslin yaddaşında möhkəmləndirilməsi qayıdış prosessinə verilmiş ən böyük töhfədir.

Qərbi Azərbaycana qayıdış platformasında fəaliyyətinin ikinci mərhələsi.

Bu mərhələ, Azərbaycan torpaqlarının işğaldan azad edildikdən sonra Qərbi Azərbaycana qayıdış platformasının geniş vüsət aldığı dövrə təsadüf edir. Artıq bu mərhələdə Mahirə Hüseynovanın təkcə ictimai məzmunlu elmi araşdırmaları ilə deyil, birbaşa döyüş meydanında görürük. O, Naxçıvanda təşkil edilmiş Qərbi Azərbaycana həsr edilmiş beynəlxalq konqresin təşkilatçılarından biridir. Onun bu konqresdəki çıxışları erməni mətbuatında geniş işıqlandırılmışdır.

Yuxarıda qeyd edildiyi kimi ictimai xadim Mahirə Hüseynovanın bu istiqamətdəki fəaliyyəti aşağıdakı kimi səciyyələndirilməlidir. O, Qərbi Azərbaycan qadın hərəkatının lideridir. Azərbaycanlıların qədim yurd yeri olan Qərbi Azərbaycana qayıdış hərakatı M.Hüseynovaya görə öz doğma yurdlarından deportasiyaya məruz qalmış şəxslərin dinc, ləyaqətli formada geri qayıtması sülh platformasının tərkib hissəsi olmaqla yurd həsrəti çəkən şəxslərin iradəsinin təzahürüdür. Bu hərəkat Qərbi Azərbaycanlıların dinc yolla öz yurd-yuvalarına qayıdana kimi davam edəcək. O, Qərbi Azərbaycan uğrunda mübarizəni Bütöv Azərbaycanın və Türk dünyasının bütövlüyünün təmin olunması uğrunda aparılan fəaliyyət hesab edir. Bədnam azərbaycanofob jurnalist, Amerika Erməni Milli Komitəsinin muzdlusu Lindzi Snell və ona istinadən Ermənistan mətbuatı, ADPU-nun Beynəlxalq əlaqələr üzrə prorektorluğu nəzdində fəaliyyət göstərən Qərbi Azərbaycan Araşdırmalar Mərkəzinin fəaliyyəti barəsində həqiqətə uyğun olmayan məlumat yaydığı zaman, professor Mahirə Hüseynovanın cavabı belə olmuşdur; -ADPU-nun beynəlxalq əlaqələr üzrə prorektorlugu nəzdində fəaliyyət göstərən Qərbi Azərbaycan Araşdırmalar Mərkəzinin fəaliyyəti Ermənistanda təşviş doğurur, davamlı olaraq bizim fəaliyyətimiz barədə həqiqətə uyğun olmayan məlumatlar yayırlar, guya bizim Mərkəzdə saxta xəritə düzəldilib və erməni toponimləri dəyişdirilib. Ermənistan dövlətinin tarixi Azərbaycan torpaqları ərazisində yaradılması tarixşünaslıq tərəfindən öz təsdiqini tapmış faktdır. Ancaq ermənilərin təşvişinə heç bir əsas yoxdur, bizim mərkəz elmi mərkəzdir, burada silah yox, elmi informasiyalar və araşdırmalar istehsal olunur.

*(Davamı səh.3-də)*

# NDU-da tanınmış dilçi alim, professor Mahirə Hüseynovanın 65 illik yubileyi qeyd olunub

**Oktyabrın 20-də Naxçıvan Dövlət Universitetində filologiya elmləri doktoru, professor, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru, Prezident təqaüdçüsü, tanınmış şairə Mahirə Hüseynovanın 65 illiyinə həsr olunmuş yubiley tədbiri keçirilib. Tədbirdən öncə Universitetin Konservatoriyasının önündə “Şərur” Xalq Yallı Ansamblının ifasında yallı xalq rəqsləri təqdim olunub.**





Tanınmış dilçi professorun həyat və yaradıcılığına həsr olunmuş tədbirdə ictimaiyyət nümayəndələri, mədəniyyət və elm xadimləri, ziyalılar, Yazıçılar Birliyinin əməkdaşları, universitetin professor-müəllim heyəti, tələbələr və yubilyarın ailə üzvləri iştirak ediblər. Tarix-filologiya fakültəsinin dekanı, filologiya üzrə fəlsəfə doktoru, dosent Arif Ağalarovun moderatorluğunda keçirilən tədbirdə professor Mahirə Hüseynovanın həyatı, elmi və bədii yaradıcılığına dair məlumatlar diqqətə çatdırılıb.

Tədbirin rəsmi hissəsində açılış nitqi ilə çıxış edən Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev dəyərli elm xadimi Mahirə Hüseynovanı zəngin elmi irsi, səmərəli pedaqoji fəaliyyəti və yüksək insani keyfiyyətləri ilə seçilən alim olaraq səciyyələndirib. Qeyd edilib ki, o, uzun illər ərzində Azərbaycan dilçiliyinin inkişafında xidmətləri olan dəyərli pedaqoq, tanınmış ictimai xadim və məhsuldar şairədir. Rektor Naxçıvan Dövlət Universitetinin "Fəxri professor"u Mahirə Hüseynovaya ali təhsil ocağına verdiyi töhfələrə görə öz dərin təşəkkürlərini bildirib, həmçinin dəyərli alim Mahirə Hüseynovanın NDU-da keçirilən tədbirlərdə iştirakını əks etdirən foto və məlumatların yer aldığı xatirə kitabı və rəsm əsəri hədiyyə edib. Elbrus İsayev yubilyarı 65 illik yubileyi münasibəti ilə təbrik edib, cansağlığı və gələcək elmi fəaliyyətində uğurlar arzulayıb.



Sonra yubilyarın elmi və pedoqoji fəaliyyəti ilə bağlı məruzələr dinlənilib. Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri Asim Yadigar dəyərli şairə Mahirə Hüseynovanın bədii yaradıcılığından nümunələri yada salaraq, ideya, dil və üslub xüsusiyyətlərindən söz açıb. Filologiya üzrə elmlər doktoru, professor Sədaqət Həsənova dilçi alimin elmi-nəzəri baxışlarından danışıb, seçilmiş şeirlərini səsləndirərək yubilyarın müasir Azərbaycan filologiya elmində və poeziyasında öz dəstixətti ilə seçildiyini diqqətə çatdırıb. Filologiya üzrə fəlsəfə doktoru, dosent Aypara Behbudova isə bir çox elmi əsərlərin və bədii kitabların müəllifi olan Mahirə xanımın dilçilik elminə gətirdiyi yeniliklərdən bəhs edib, şeirlərindən parçalar səsləndirib. AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev, Naxçıvan Muxtar Respublikasının təhsil naziri Elxan Nəcəfov , Milli Məclisin deputatı, Azərbaycan Respublikasının Əməkdar Rəssamı, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri Ülviyyə Həmzəyevanın təbrik çıxışları dinlənilib. Natiqlər yubilyara təbriklərini çatdırıb, hədiyyələr təqdim ediblər. Həmçinin AMEA Naxçıvan Bölməsi, Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi və Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurası adından professor Mahirə Hüseynovanın çoxşaxəli elmi fəaliyyəti yüksək dəyərləndirilərək fəxri fərmanlar təqdim olunub.

Azərbaycan Respublikasının “Qabaqcıl təhsil işçisi” döş nişanı, “Qızıl qələm” Media Mükafatı Laureatı, “İlin Alimi” Media Mükafatı Laureatı kimi bir çox diplom və mükfatlara layiq görülən dilçi professor Mahirə Hüseynova elmi, pedaqoji və bədii yaradıcılığına göstərilən yüksək diqqətə görə təşəkkürünü bildirib.

Tədbir universitetin tələbələrinin və “Turan” Ansamblının təqdimatında bədii proqramla davam edib. Sonda Azərbaycan Respublikasının Xalq artisti Gülyanaq Məmmədovanın tədbirdə iştirakı, "Mən bu ömrü elə belə yaşadım" və "Azərbaycan" mahnılarını ifa etməsi isə bütün tədbir iştirakçılarında xoş təəssürat yaradıb.

# Professor Mahirə Hüseynovanın ictimai fəaliyyəti Qərbi Azərbaycana qayıdış kontekstində

*(Əvvəli səh.2-də)*

Biz dinc və ləyaqətli formada öz yurdumuza qayıtmaq istəyirik, bizi bu yoldan heç kim döndərə bilməz!

Qərbi Azərbaycan İcmasında fəaliyyəti

1) Dərələyəz Keşkənd İcmasının rəhbəri.

Dərələyəz icmasının formalaşması, təşkilatlanmasının təmin olunması,

kənd icmalarının yaradılması, fəaliyyətinin koordinasiya edilməsi.

Dərələyəzin ayrı-ayrı kəndləri haqqında kitabların hazırlanması.

Dərələyəz Ensiklopediyasının hazırlanması.

Dərələyəz Futbol komandasının təşkil olunması.

2) Qərbi Azərbaycan TV-də müəllifi olduğu "Ziyalı sözü" verilişindəki fəaliyyəti.

3) Monitorinq TV-də fəaliyyəti.

ADPU-nin beynəlxalq əlaqələr üzrə prorektorluğu nəzdində Qərbi Azərbaycan Araşdırmalar Mərkəzinin fəaliyyəti

-Qərbi Azərbaycanla bağlı elmi araşdırmaların aparılması (tarix, ədəbi, folklor və.s.)



- Tələbələr arasında Qərbi Azərbaycanla bağlı təbliğatın aparılması

- Qərbi Azərbaycana dair Olimpiyadaların təşkil olunmasında dəstək

-Elmi metodiki tövsiyyələrin verilməsi

-Qərbi Azərbaycanla bağlı tədbirlərin keçirilməsi

Xüsusi layihələr üzrə "Ulduz" jurnalının Qərbi Azərbaycana həsr edilmiş xüsusi buraxılışının çap edilməsi və.s

"Elmi iş","Filoloq" qəzetlərindəki fəaliyyəti əsasən elmi istiqamətlərə həsr edilib.Lakin təsisçisi və baş redaktoru olduğu aylıq nəşr olunan "Yurdun səsi" qəzeti və ildə üç dəfə işıq üzü görən ictimai-siyasi,tarixi məzmunlu "İz" jurnalı Qərbi Azərbaycanla bağlı həqiqətlərin ictimaiyyətə çatdırılması fəaliyyətinin ruporuna çevrilmişdir.Vətəninin hər daşını, qayasını canından artıq sevən bu yolda yorulmadan, usanmadan fədakarlıq edən əsil vətəndaş Mahirə Nağıqızını 65 illik yubileyi münasibəti ilə ürəkdən təbrik edir ,ona bu yolda davamlı addımlamağı arzu edirik!

***Səməd VƏKİLOV,***
***Tədqiqatçı-hüquqşünas***

## Tanıyaq, tanıdaq!

# El ağsaqqalı İbrahim Mirzəlioğlu

**Yarım əsr Dərələyəz mahalının ağsaqqalı olan İbrahim Mirzəlioğlu 1889-cu ildə həmin bölgənin Qovuşuq kəndində anadan olmuş, 93 il ömür sürmüş və 1982-ci il yanvarın 6-da Bakı şəhərində qəflətən infarktdan vəfat etmişdir. Çox cəld və gümrah adam olmuş, ölənə qədər buzlu su içmiş və hər gün ən azı 8 saat mütaliə etmişdir. O, Azərbaycan (folklorunun, şərq ədəbiyyatının, şəriətin gözəl bilicisi, saz-söz sənətinin xiridarı, "Leyli-Məcnun"u, "Gülüstan-Büstan"ı, "Şahnamə"ni, Abbası, Xəstə Qasımı, Qurbanini, Valehi, Ələsgəri, Alını, Nizami və Nəsimini, Şərqin hikmətlərini yaddaşında gəzdirən, daim Vətən, yurd dərdi ilə qəlbi döyünən, ensiklopedik məlumata, güclü yaddaşa, geniş dünyagörüşə malik olan, məğrur, qorxmaz, əyilməz, sinədəftər, şair təbiətli el ağsaqqalı olmuşdur. O, kiçik və gənc yaşlarında təxminən 15 il Dərələyəzin Qovuşuq, Güneyvəng, Ələyəz, Ərgəz və Hors kəndlərində ruhani təhsili almışdır. Ona dərs deyən müəllimlər, əsasən, Təbriz və Mərənddən olmuşdur. Özünün söylədiyinə görə şəriəti, Quranı, Şərq ədəbiyyatını, şərq tarixini, fars dilini, ərəb dilinin müəyyən hissəsini ona, əsasən, Mərənddən gəlmiş Molla Səttar adlı şəxs öyrətmişdir.**

Bununla yanaşı, onun əsas müəllimi neçə-neçə illər Təbrizdə ruhani təhsili almış atası Mirzəli kişi və 20 il İranda və İraqda (Nəcəfdə) oxumuş Qovuşuqlu (yaxın qohumu) Axund Əli olmuşdur. İbrahim kişi fars dilini professional tərcüməçilər səviyyəsində mənimsəmiş, ərəb, rus, erməni dillərini isə orta səviyyədə öyrənmişdir. O, 1918-ci il erməni-müsəlman davasında Andranikin dəstələrinə qarşı vuruşmuş, döyüşlərin birində, Hosdun adlı azərbaycanlı kəndində 6 nəfər ilə birlikdə mühasirəyə düşmüş və cəsur arxadaşlarının köməyilə ölümün pəncəsindən qurtarmışdır. O, 1918-ci ildə, (qaçaqaçda) qohum-əqrəbası ilə birlikdə Şəmkir rayonuna gəlmiş və 1921-ci ilə kimi ailəsi ilə birlikdə Qaracəmir kəndində qalmışdır.

1918-1921-ci illər arasında Gəncə, Şəmkir, Goranboy, Tovuz, Ağstafa, Qazax, Tərtər, Yevlaxda olan Dərələyəz qaçqınları özlərinə 9 ağsaqqal seçir ki, qarşıya çıxan problemləri bunlar həll etsin. 1920-ci ildə Nəriman Nərimanov bir neçə hökumət nümayəndəsi ilə Şəmkirə gəlir. Alabaşlı stansiyasında yerli camaat, o cümlədən, bu 9 nəfər Dərələyəz ağsaqqalları da onu qarşılayır. Dərələyəz qaçqınları adından bu 9 nəfər Nəriman Nərimanova deyir ki, bizə kömək edin vətənimizə qayıdaq. N.Nərimanov onlara cavab verir ki, ora indi qayıtsanız bir çox çətinliklərlə qarşılaşacaqsınız. Ermənilər çox hiyləgərdir, daşnaklar da hələ bildiyini eləyir. Onlar sizin öz yerinizə qayıtmağınızı istəmirlər. Bu zaman həmin ağsaqqalın ən cavanı olan İbrahim Mirzəlioğlu bir qədər qabağa çıxıb N.Nərimanova deyir ki, hörmətli Nəriman Nərimanov! Dərələyəz camaatı buradakı istiyə dözə bilmir. Hamısı qızdırır, əlləri qabar, qarınları da acdır. N.Nərimanov buna diqqətlə baxıb deyir ki, cavan oğlan heç sənin əllərində qabar yoxdur axı! İbrahim Mirzəlioğlu utanıb başını aşağı salır və bu zaman agsaqqallardan biri deyir: Nəriman müəllim, o qaçqınlar üçün işləyir, ona görə də qabar onun əlində yox, dilindədir. N.Nərimanov gülümsəyə-gülümsəyə həmin ağsaqqala deyir ki, görürəm çox dilavərdir, ermənilərlə bacara bilər. Gedin, amma ehtiyatınızı əldən verməyin və onlara inanmayın.

İbrahim Mirzəlioğlu 1921-1935-ci illər arasında Dərələyəz camaatını ermənilərin şərindən, hiyləsindən, təzyiqindən qorumuşdur. 1935-ci ildə bir neçə kəndin kənd sovet sədri işləyərkən Ermənistan daxili işlər naziri Dülqaryan adlı şəxslə Qovuşuq kəndində sözləşmiş, onların millətçilik etdiklərini, azərbaycanlıları sıxışdırdıqlarını üzünə demiş və əlbəyaxa olmuşlar. Bu hadisədən 40 gün sonra, gecənin birində gəlib onu tutub aparmış, xalq düşməni adı altında (onu üçlük məhkəmə etmişdir) Sibirə sürgün etmişlər. 5 il Sibirdə (Omsk, Tomsk, Ulan-Ude, Baykalda...) onu millətçi adı altında yatırtmış, 1940-cı ildə azad etmiş və Dərələyəzə qayıtmağı ona qadağan etmişlər. Odur ki, o türmədən qayıtdıqdan sonra 1940-1953-cü illər arasında, əsasən, Qarabağ, Gəncə və Naxçıvanda yaşamalı olmuşdur. Azərbaycanlıları müti şəkildə saxlamaq üçün ermənilər onu öz doğma yurduna buraxmırdılar. 1953-cü ildə Stalinin ölümündən və Xruşovun siyasi məhbuslarla bağlı verdiyi qərarından sonra o, öz doğma kəndinə qayıtdı. İbrahim Mirzəlioğlu 1953-1976-cı illərdə öz doğma kəndində, 1976-cı ildən 1982-ci ilə qədər isə Bakı şəhərində yaşamış, 1982-ci il yanvarın 6-da Bakıda dünyasını dəyişmişdir. Şərur-Dərələyəz eli, Naxçıvan, Qarabağ, Gəncə, Göyçə, Vedi, Zəngibasar, İrəvan, Laçın, Kəlbəcər camaatı dəstə-dəstə axışıb onun dəfninə gəlmişlər. O, həm Dərələyəzdə, həm də Azərbaycanın bir çox bölgələrində böyük nüfuz sahibi olmuşdur. Xeyirdə-şərdə, toydayasda, ağrılı-acılı günlərdə, məsləhət-məşvərətlərdə, qan barışığında camaat onu həmişə məclisin başında otuzdurmuşdur. Xeyir işi olanlar həmişə bir gün əvvəl gəlib onu aparırdılar ki, toylarına çox adam gəlsin. Toya gələnlər musiqidən çox onun şirin söhbətinə qulaq asırdılar. Ermənilər İbrahim Mirzəlioğlunun hər bir sözü ilə hesablaşırdılar, çünki el həmişə onun arxasınca gəlirdi. O, yarım əsr müddətində Dəyələyəz camaatı üçün çox iş gömüşdür.

Həsən Mirzəyev 2004-cü ildə çap olunmuş "Qərbi Azərbaycan Dərələyəz Mahalı" kitabında İ.Mirzəlioğlu ilə bağlı xatirələrini belə dilə gətirirdi: 1965-ci il iyun ayının 25-i idi. Mən həmin gün Azərbaycan Dövlət Pedaqoji Universitetinin akt zalında namizədlik dissertasiyası müdafiə edirdim. Atam da Dərələyəzdən gəlib müdafiəyə qulaq asırdı. Atam universitet kollektivi üçün binanın 1-ci mərtəbəsindəki yeməkxanada stol açdırmışdı. Müdafiə qurtaran kimi Bakı şəhər plan komitəsinin sədri İlyas Vəkilovla (qohumu ilə) birlikdə hamını ora dəvət etdi. İlyas Vəkilov burda olduğu üçün universitetin bütün rəhbərliyi ilə məclisə gəldi. Universitetin yeməkxanası başdan-ayağa qədər alimlərlə dolu idi. İnstitutun rəhbərliyi, sovet üzvləri, opponentlər müdafiənin yaxşı keçdiyini, tənqidçilərə verdiyim cavabların yerli-yerində olduğunu və s. söylədilər. Axıra yaxın İlyas Vəkliov universitetin rektoru prof. Şövqi Ağayeva dedi ki, bu dissertantın atası niyə belə sakit əyləşib, qoy heç olmasa bu alimlərə öz razılığını bildirsin. Mirzəlioğlu ayağa durub dedi mən sadəcə bir kəndliyəm. Bu alimlərin qarşısında mən nə söz deyə bilərəm. Bu zaman yerdən onu tanımayanlar dedi ki, a kişi, qorxma bir-iki kəlmə sözlə öz razılığını bildir. O, sözə başladı, oğlum sərf-nəhfdən (qrammatikadan) dərs deyir. Mən sizdən bilmək istəyirəm, oğlum bu çətin fənni uşaqlara başa sala bilirmi? Bu işə can yandırırmı? Bu sualdan sonra o, bir beyt şer dedi; "Sərfi-nəhvin emalı çoxdur, daş-dəmirdən baş gərək . Ya oxuyan sahib-kamal, ya dərs dəyən qardaş gərək". Bundan sonra Şərq tarixinə, Qabusnaməyə, Kəlilə və Dimnəyə müraciət etdi. Quranda elm va alimlər haqqında deyilənləri yada saldı. Nizami Gəncəvinin, Sədi Şirazinin, Firdovsinin nəzm ilə deyilən nəsihətlərini, müdrik kəlamlarını farsca deyib azərbaycancaya tərcümə etdi. Sədi Şirazinin "naəhlə tərbiyə vermək məscidin başına atılan qoz kimidir" nəsihətinin üstündə Azərbaycanın məşhur pedaqoqları prof.Əhməd Seyidov və prof.Mərdan Muradxanovla xeyli mübahisəyə girişməli oldu. O, Sədi Şirazinin "Gülüstan" və "Bustan" əsərlərindən nəzmə çəkilmiş başqa nəsihətlərini əzbər deyib tərcümə etdi. "Kim mənim övladıma bir qətrə bilik vərsə, mən ömür boyu onun qulu olaram" misalına etiraz edən universitetin prorektoru dosent Əsəd İbrahimova ərəb və fars dillərində deyilmiş xeyli misalları, tarixi faktları xatırlatdı. Bundan sonra sevdiyi, əzbər bildiyi Məhəmməd Füzuliyə müraciət etdi. Xeyli şeir və qəzəl parçalarını əzbər deyib onu dərindən təhlil etdi. Məclisdə heç kim danışmır, hamı ona qulaq asırdı. Bu zaman universitetin rektoru prof, Ş.Abayev zarafatla dedi: İbrahim kişi ədəbiyyat kafedrasında müəllim işləməyə razılıq ver, bu saat əmrini verirəm. Orada yalnız Nizami, Füzuli, Nəsimi, Firdovsi və Sədi Şirazinin əsərlərini uşaqlara təhlil et. Yerdən Mirzə Ələkbər Sabirin oğlu Məmmədsəlim Tahirli söz atdı ki, mən prorektor kimi razılıq verəcəyəm, çünki Sabiri yada salmadı. İbrahim kişi dərhal Sabirdən üç şeir əzbər dedi və Sabirə söykənib mədəni şəkildə müəllimlərə sataşdı. Tahirli İbrahim kişiyə razılığını bildirdi. Bundan sonra keçdi şifahi xalq ədəbiyyatına. Qurbanidən, Valehdən, Ələsgərdən, Abbas Tufarqanlıdan, Xəstə Qasımdan məclisin nəbzinə uyğun qoşmalar dedi, dini məsələlərə həsr olunmuş qıfılbəndləri açdı. Prof.Ə.Dəmirçizadə, prof.F.Qasımzadə, prof.Z.Tağızadə, prof.F.Fərhadov ədəbiyyata belə dərindən bələd olduğu üçün İbrahim kişiyə öz razılıqlarını bildirdilər. Məclisdə oturanlar hamısı buna əl vurdu. İbrahim kişi oturmaq istərkən dedi: "İki şey adamı hörmətdən salar. Bir, söz məqamına çatanda deməmək, bir də söz məqamından keçəndə demək. Bir sözü deməsəm ürəyim sakitləşməz. Müdafiə bir neçə saat çəkdi. Burada danışanların hamısı və oğlum tez-tez deyirdi, Feli sifət belə gəldi, feli sifət belə getdi. Axı belə mövzuların indiki dövrdə cəmiyyətə nə faydası var. Mən də oğlumu göndərmişəm ki, gedib alim olsun. Belə alim olmağa nə var ki?" deyib yerində əyləşdi.



Erməni prokurorunun hüzür yerindən qovulması.

1960-ci illərdə Dərələyəzin Qovuşuq kəndində bir hüzür düşür. Şərurdan Molla Məhəmmədəli adlı şəxs də bu məclisi idarə edirmiş. Birdən rayona yenicə prokuror təyin olunan, əsli Dağlıq Qarabağdan olan, Azərbaycan dilini yaxşı bilən erməni (adı yadımdan çıxıbdır, dodaqları çapıq bir adam idi) məclisə daxil olur və 5-6 dəqiqədən sonra mollaya sataşmağa başlayır. Mollaya deyir ki, siz bu camaatı soyursunuz, durun çıxın gedin Şərura. Buradakı vəzifəli şəxslər (Vali Zeynalov, Mamed Zülfüqarov, Qəşəm Quliyev, Qafar Gülmalıyev, Vəli Cəfərov) pərt olsalar da prokurora bir söz demirlər. Məclisdə oturan adamların hamısı mollanın yanında oturan agsaqqalın üzünə baxırlar. Bu zaman Dərələyəzin ağsaqqalı İbrahim Mirzəlioğlu prokurora cavab verib deyir ki, ay prokuror bunlar camaatı soymur, camaatı siz soyursunuz, azərbaycanlıları bir-biri ilə savaşdırıb var-yoxlarını əllərindən siz alırsınız. Bu molla hüzürün sonuna qədər burada oturacaqdır. İndi siz tez durun və məclisi tərk edin. Prokuror bu cavabdan çaşıb vəzifəlilərin üzünə baxır. Bu zaman kəndin briqadiri Kazım Məmmədov deyir ki, bu kişi hamının ağsaqqalıdır və onun dedikləri hamımız üçün qanundur. Cavanlar ayağa durmamış tez maşına min və aradan çıx. Prokuror Mirzəlioğlunu hədələyib kənddən çıxır və gedib rayonun başçısı, raykom katibi Hövsepyana şikayət edir. Hövsepyan ona deyir ki, böyük səhvə yol vermisən. Sən bundan sonra daha azərbaycanlı kəndlərinə gedə bilməzsən. Gərək sən gedib o kişi ilə barışasan. Bir gün raykom katibi həmin prokuroru götürüb Qovuşuq kəndinə gəlir. İbrahim Mirzəlioğlunu qapıya çağırtdırıb deyir: İbrahim kişi qonaq istəmirsən? O cavab verir ki, qonaq Allah qonağıdır. Sonra katib əlavə edir ki, bir xoşun gəlməyən adamı da sənin hüzuruna gətirmişəm, keç onun günahından (prokuroru göstərir). İbrahim kişi cavabında deyir: belə adamlar azərbaycanlılar olan rayonlarda işləməməlidir. Günahından keçirəm. Amma o bir də azərbaycanlılar yaşayan kəndlərə getməsin, yaxşısı budur ki, başqa prokuror gətirin işləsin.

Mərkəzdən gəlmiş başçının Həsənkənddə təndirə salınması. 1921-1922-ci illərdə ermənilər qaçqınlıqdan qayıtmış azərbaycanlıların öz kəndlərində məskunlaşmasına mane olurdu. Şovinist ermənilərlə bunların arasında mübahisələr, çəkişmələr qurtarmırdı. Azərbaycanlılar özlərinə kömək axtarırdılar. İrəvandan Dərələyəzə göndərilmiş silahlı dəstənin başçısını, milliyətcə erməni olan Matevos Saqetelyanı ermənilər Həsənkənddə təndirə salıb öldürmək istəyilər. Azərbaycanlılar erməniləri ifşa etmək üçün onu ölümdən xilas etmək qərarına gəldilər. Qovuşuqlu İbrahim Mirzəlioğlu və Güldüzlü Calaqoğlu Firudun azərbaycanlı kəndlərində 8-10 nəfər tanınan, cəsur, yaxşı güllə atan adamları yığıb deyirlər ki, o başçını xilas elməsək, ermənilər tutmuş olduqları azərbaycanlı evlərindən çıxmayacaqlar. Bunlar atları minib rayon mərkəzinə gəlmək adı altında həmin kəndin (Həsənkəndin) içindən keçir və yaxşı güllə atanları (Ovçu Qəhrəmanı...) kəndin qırağında qoyub atları həmin başçının təndirə salındığı evə (Muşex adlı ermənin qapısına) sürürlər.

Yaşlı ermənilər cavanlara deyir ki, gələn azərbaycanlıların ağsaqqallarıdır. Onlara güllə atsanız əzərbaycanlılar bu kəndin altını üstünə çevirər. İbrahim burada erməniləri diplomatik yolla qorxudub deyir ki, siz hökumətlə hökumətlik edirsiniz? Hökumət sizin hamınızı tutub Sibirə göndərər. Siz indi rayona gəlməyin, sizi tutarlar. Biz rayona gedirik, həmin başçını verin, biz aparaq. Daşnaqlarla mübarizə üçün İrəvandan Dərələyəzə göndərilmiş həmin adamı təndirdən çıxarıb rayona aparırlar. Rayona çatanda əsgərlər bunları mühasirəyə alıb tutur və döymək istəyirlər. Lakin həmin başçı əsgərlərə əmr edir ki, azərbaycanlılara toxunmayın. Onlar məni ölümdən qurtardılar. Həmin başçı bu hadisədən sonra ermənilərin azərbaycanlıları sıxışdırmasına imkan vermir və həmin adamın vasitəsilə İbrahim Mirzəlioğlu ayrı-ayrı vaxtlarda yüzlərlə azərbaycanlıya kömək edir (bunu bütün Dərələyəz camaatı bilir).

*Qərbi Azərbaycan Araşdırmalar Mərkəzi*

# Tanıyaq, tanıdaq!

## Həsən Mirzəyev - uğursuzluğun ruhdan salmadığı insan

**Bu il noyabrın 26-da filologiya elmləri doktoru, professor, Azərbaycan Respublikasının Əməkdar Elm Xadimi Həsən İbrahim oğlu Mirzəyevin anadan olmasının 98 illiyidir.**

O, tez-tez əhatəsində olan insanlara dünyanın əbədi olmadığını xatırladırdı.

Həsən Mirzəyev bu sadə həqiqətlə bərabər, əməllər ilə əbədiyyət qazanmağın mümkün olduğunu insanların yadına salırdı.

Həsən Mirzəyevi tanıyanlar onu da bilirdilər ki, o, uğursuzluğa görə ruhdan düşmür və bəziləri kimi bunun səbəbini başqalarında deyil, özündə axtarmağı lazım bilirdi.

O, Fyodor Dostoyevskinin dediyi kimi, həyatı onun mənasından daha çox sevirdi. Bəlkə bunun üçün idi ki, ətrafındakı insanlar Həsən Mirzəyevi tükənməz enerji mənbəyi sayırdı.

O, tələbələrinin yadında quru nəzəriyyələrin, cansıxıcı, şablon fikirlərin və həyat ilə heç bir əlaqəsi olmayan, təcrübədə yoxlanıla bilməyən, mücərrəd mühakimələrə əsaslanan sxolastik yanaşmaları rədd edən, axtarışda olmağı hər bir yaradıcı insan üçün başlıca keyfiyyət sayan müəllim olaraq qalıb. Buna görə idi ki, Həsən Mirzəyev rəhbəri olduğu kurs və diplom işlərinin mövzusuna həssaslıqla yanaşır, o mövzunu təklif edənlərdən də həmin həssaslığı gözlədiyini gizlətmirdi. Professor tələbələrinə elmdə heç bir mübahisə predmeti və perspektivi olmayan mövzulardan uzaq qaçmağı tövsiyə və tələb edirdi. Bizim tələbə olduğumuz zamanlarda, 1980-ci illərin əvvəllərində, o, bütün yetirmələrindən, xüsusilə, bu günkü Ermənistan və Gürcüstandan olan tələbələrindən daha çox toponimlərlə əlaqədar mövzular işlənilməsini tələb edirdi. Onu xatırladırıq ki, onda həmin mövzular indiki kimi, elmi olmaqla bərabər, siyasi zərurət də sayılmırdı. Bir dəfə adını xatırlamadığım tələbə yoldaşlarımdan biri "Niyə həmin mövzulara bir belə diqqət ayırırsınız, Həsən müəllim?-sualına isə professorun cavabını unutmamışam və heç vaxt da unutmayacam: " Ona görə diqqətliyəm ki, qızım, toponimlər cəmiyyətin və bütövlükdə bəşəriyyətin inkişafında əvəzsiz elementdir. Onların hər birində bizim ata-babalarımızın nəfəsi, xalqımızın keçdiyi yerlərdə izi, nəfəsi qalıb. Əgər bu gün bizim hər birimiz o izləri qorumasaq, onların qayğısına qalmasaq, baxımsız evlər kimi günün birində itib-batacaq".

Bu, alim-vətəndaş hisslərinin ifadəsi idi.

Həmin mükalimədən az sonra Həsən Mirzəyev növbəti mühazirələrin birində yenidən həmin söhbətə qayıtdı. Qayğılı və həmin qayğının bütün üz cizgilərində hakim kəsildiyi tutqunluqla mühazirənin mövzusundan 5-10 dəqiqəlik kənara çıxacağını elan edən professor, bir həftə əvvəl bir qrup tələbə ilə etdiyi söhbəti yada salaraq, 75 nəfərlik auditoriyaya xitab etdi: "Əlbəttə, onu sizlər də yaxşı bilirsiniz ki, toponimlər müəyyən bir ərazi hüdudlarında onların məcmusunu ifadə edir; çoxəsrlik xalq yaradıcılığının, coğrafi adların yaradılmasının nəticəsi olaraq meydana gəlir. Toponimlərin əsas xüsusiyyəti onların sabitlik, canlılıqdır və buna görə də ən qədim abidələr kimi xalqına xidmət edir, bəşər tarixinin, mədəniyyətinin və dilinin dərinliklərinə nüfuz etmək üçün bizə imkan verir. Bir çox toponimik adlar onları yaradanlara şahidlik edir, bir-birini əvəz edən müxtəlif tayfalar və xalqları nişan verir. İstənilən ərazi ilə tanışlıq, istər ölkə, istər şəhər, istər kənd olsun, fərqi yoxdur, onun toponimləri xalqın poetik dizaynı, xalqın xarakterinin, tarixinin, meyl və məişət xüsusiyyətlərinin danışan dilidir. Ona görə, mühazirənin mövzusundan kənara çıxdım ki, bunları bir daha sizə xatırladım". Həsən müəllim bu sözlərdən sonra auditoriyanın pəncərəsindən darısqal, sanki havasızlıqdan təngənəfəs olan küçəyə baxdı və gözlənilmədən Tufarqanlı Abbasdan üç bəndlik qoşma dedi:

*"Bəd övladı əzəl başdan tanıram,*
*Çör-çöp yığar, yad ocağın yandırar.*
*Səhər durar ar-namusun gözləməz,*
*Suyu tökər, öz ocağın söndürər.*

*Ulğun cuşa gəlsə, köpük yağ olmaz*
*Söyüd bar gətirsə, bağça, bar olmaz*
*Zibil təpə olsa, güllük dar olmaz,*
*Yel əsəndə alçaqlara endirər.*



*Abbas bu sözləri deyər sərindən,*
*Arxı vurun, suyu gəlsin dərindən,*
*El bir olsa, dağ oynadar yerindən,*
*Söz bir olsa, zərbi kərən sındırar".*

Həmin səhnəni unuda bilmirəm.

O, adamlarda vətəndaş mövqeyi axtarırdı və onu qeyd etməyi lazım bilirəm ki, Həsən Mirzəyevin müəllim-alim-ictimai xadim olaraq yaranan portretini tamamlayan ən mühüm detal məhz onun mövqeyi hesab oluna bilər.

Professorun Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfinfən ali məktəb tələbələri üçün dərs vəsaiti kimi təqdim edilmiş və 1997-ci ildə nəşr olunan "Aşıq poeziyasında yaşayan adlarımız və tariximiz" kitabı dil faktlarının toplandığı arealın genişliyi ilə heyrətamizdir. Azərbaycan aşıqları və el şairləri, Azərbaycan xalq dastanları, Azərbaycan aşıq ədəbiyyatının ayrı- ayrılıqda ən nəhəng nümayəndələri, həmçinin müasirləri olan aşıq və el şairlərinin saya- hesaba gəlməyən yaradıcılıq nümunələrini tədqiqata cəlb edərək qədim tariximizin qatlarına enir, yaşayan adları, onların etimologiyasının izi ilə gedə bilirdi. Professor Qəzənfər Kazımov onun bu keyfiyyətlərinə stimul verən amili belə qiymətləndirirdi: "Həsən Mirzəyev filologiyamızda müasir ədəbi dilimizin morfologiyasını, xüsusən dilin quruluş xüsusiyyətlərini sinxron, diaxron aspektdə araşdırmaqda, o cümlədən xalqın qədim tarixini, dilini, milli orijanıllığını daha yaxşı mühafizə edib saxlayan feillərin mahir tədqiqatçısı kimi məşhurdur. Lakin professor həqiqi bir filoloq kimi el sənətinə- aşıq ədəbiyyatına da dərindən bələddir və bu sahənin vurğunudur. "Aşıq poeziyasında yaşayan adlarımız və tariximiz" kitabında müəllif əsasən onomastik leksikanın tədqiqi ilə məşğul olmuş və xüsusi adları bir küll halında bütün sahələr üzrə nəzərdən keçirmişdir".

Bu kitabında Azərbaycan aşıq poeziyasının izinə düşüb Gəncə, Ordubad, Naxçıvan, Dərbənd, Şamaxı, Şəki, Savalan, Şəmkir, İrəvan, Qazax, Göyçə, Qarabağ, Dərələyəz, Qafqaz və başqa toponimlər əsasında dilimizin tarixinə qoşulub gedirik. Buna görədir ki, Həsən Mirzəyevin türk mənşəli etnonimlər və bu etnonimlər əsasında yaranan toponimlərlə bağlı mülahizələri elmi olduğu qədər inandırıcıdır.

Həsən Mirzəyev bu silsilə tədqiqatların davamı olaraq heyrətamiz zəhmət tələb edən böyük elmi əhəmiyyətli növbəti əsərlər yaradıb. "Dərələyəzin toponim və şivə sözləri", "Dərələyəz folkloru", "Qərbi Azərbaycanın Dərələyəz mahalı" (ensiklopedik məlumat), "Dərələyəz mahalının toponimləri və şivə sözləri" kimi sanballı monoqrafiyalarında Dərələyəz mahalının etnoqrafik mənzərəsini ortaya qoyan professor, Azərbaycan dilçiliyində bu istiqamətdə gedən prosesləri sürətləndirməklə, oxşar mövzuda aparılan elmi axtarışlara impuls veribdir. O axtarışların içərisində Qərbi Azərbaycandakı toponimlərlə bağlı araşdırmaları xüsusi yer tutur. Dərələyəz mahalının toponimiyasının əsas fondunun türkmənşəli adlar təşkil etdiyi birmənalıdır. Azərbaycanda, əlbəttə, o cümlədən, onun təbii sərhədləri içərisinə daxil olan indiki "Ermənistan dövlətinin" ərazisində xəzər, qıpçaq, oğuz-səlcuqlarla bağlı toponim layları kifayət qədər dərinlikdədir. O layların araşdırılması işində professorun elmi marağı qədər də vətəndaş yanğısını müşahidə etmək mümkündür. Patetikadan uzaq olaraq onu qeyd etməyi vacib bilirik ki, Qərbi Azərbaycanın istənilən ərazisində erməni xalqına bağlı toponimlərlə nadir hallarda rastlaşmaq olduğu halda, bu sahədə dominantlığın Azərbaycan xalqına məxsusluğunu hər bir məqamda görmək mümkündür. Bu xüsusda Həsən müəllimin apardığı tədqiqatlrın miqyası ancaq genişliyinə görə deyil, elmi təsdiqinə görə mühüm əhəmiyyət daşıyır. Onun tədqiqata cəlb etdiyi aqoronimlər, antrotoponimlər, zoonimlər, drinonimlər, hidronimlər, oykonimlər, oronimlər 200 ilə yaxındır ki, havadarlarının bütün imkanları ilə göstərdiyi yardımlar sayəsində bu yerlərdən azərbaycanlıları çıxarmağı bacaran erməni millətçiləri onların getdiyi izləri silə bilmədiyini göstərir. XIV cildlik kitabının III cildinə toponimlərlə bağlı araşdırmalarını verən müəllif o araşdırmaların elmi, hətta siyasi əhəmiyyətini diqqətə çatdırır: "Torpağını-daşını qarış-qarış gəzdiyim, maddi-mədəniyyət abidələrinə dərindən bələd olduğum Dərələyəzin toponimistik vahidlərini qələmə almağı zəruri hesab etdim".

O, möcüzəyə inanmırdı, həyatda qazanılan hər bir dayanıqlı uğurun kökünü elm və zəhmətdə görürdü.

Bu sətirlərin müəllifi dəfələrlə həmin prinsipial mövqeyin şahidi olub və onu gənclik illərindən tanıyanların dediklərindən də məlum olur ki, Həsən Mirzəyev bütün şüurlu həyatı boyu bu inamın arxasınca gedib.

Onu Azərbaycan Dövlət Pedaqoji Universitetinə, Azərbaycan dilçiliyi ixtisası üzrə aspiranturasına gətirən də o inam olub və ömrünün sonunadək orada çalışıb. O, burada müxtəlif illərdə müəllim, baş müəllim, dosent, professor, dekan müavini və kafedra müdiri vəzifələrini tutub.

O, dilçiliyin müxtəlif problemlərinə dair bir sıra sanballı tədqiqatları ilə tanınırdı, alimin xüsusən Qərbi Azərbaycanın yer adları ilə bağlı araşdırmaları milli tarixin öyrənilməsi baxımından xüsusi əhəmiyyət kəsb edib. Bu illərdə professor Həsən Mirzəyevin 200-dən çox elmi əsəri, o cümlədən 25 kitabı,10-a yaxın dərs vəsaiti işıq üzü görüb və o detalı xatırladaq ki, bu kitab və məqalələr alimin elmi yaradıcılığını əks etdirən statistik göstəricilərdir. Bu elmi axtarışların subyekti olan mövzular isə müəllifin daxilindən gələn istəyin hara istiqamətləndiyini ifadə edən göstəricilərdir. Bunun üçündür ki, professor Həsən Mirzəyevi yaxından tanıyan dilçilər onun tədqiqat subyekti kimi əsas nitq hissələrindən olan "feil"-i seçməsini heyrətlənməyib, hətta yeri düşəndə, bununla bağlı həqiqət yükü olan zarafatlarından da qalmayıblar.

Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, professor Tofiq Hacıyev Həsən müəllimin böyük təntənə ilə keçirilən 85 illik yubileyində onun elmi fəaliyyətini çıxışının sonunda bu cür səciyyələndirdi: "Həsən Mirzəyev müasir Azərbaycan elminin feilidir".

Hesab edirik ki, bu, qaynar, qaynar olduğu qədər də çalışqan və məhsuldar Həsən Mirzəyevin həyat yolunun sərrast ifadəsi idi.

Azərbaycan filologiyasının inkişafında filologiya elmləri doktoru, professor Həsən Mirzəyevin xidmətlərini onun tədqiqata cəlb etdiyi mövzuları sadalamaqla da göstərmək mümkündür. İstənilən ani peşəkar baxış kifayət edər ki, onun mövzu seçərkən həmişə mübahisəli, tədqiq olunmamış, dilçilərin və folklorşünasların toxunmadığı məsələləri tədqiqata cəlb etdiyinin şahidi olasan. Buna görə, cəsarətlə onu demək olar ki, professor Həsən Mirzəyev Azərbaycan dilçiliyində feil bəhsi üzrə məktəb yaradan, bu mövzuda monoqrafiyalar yazan, 150 il müddətində türkologiyada polemik mövzuları (feili sifət, feilin təsir kateqoriyası və s.) tədqiq edən və mübahisələrə son qoyan alimlərdən biri kimi qəbul edilir. Azərbaycan dilində olan feillər özünün leksik-semantik, morfoloji, sintaktik, üslubi, fonetik, frazeoloji, etimoloji xüsusiyyətlərinin zənginliyi, rəngarəngliyi və başlıcası, fərdiliyi ilə digər nitq hissələrindən fərqlənir. Bundan əlavə, feillər üçün xarakterik xüsusiyyətlərdən biri onun dilin milli orijinallığını və qədim ünsürlərini daha yaxşı mühafizə etməsidir. Ona görədir ki, dilçiliyimizdə feillərlə bağlı daha intensiv diskussiyaların, elmi mübahisələrin indi də şahidi oluruq. Kateqoriyaların çoxluğu, fərdiliyi, dilçiliyin əksər sahələri ilə sıx bağlılığı, çoxşaxəliliyi və digər xüsusiyyətləri bu bəhsi, bu bəhslə əlaqədar sahələri söz yaradıcılığı baxımından hərtərəfli tədqiq etməyi zəruri edirdi. Ümumi dilçilikdə, o cümlədən türkologiyada mübahisəli, həmçinin maraqlı səciyyəvi xüsusiyyətləri ilə zəngin olan Azərbaycan dilində feli sifət və təsirli-təsirsiz fellər mövzusu 70-80 ildən artıq müddətdə gah feil, gah da feili sifət bəhsinə daxil edilib. Ona görədir ki, bu istiqamətdə aparıan elmi axtarışların dərs vəsaiti kimi çap olunmasının zəruriliyini Azərbaycan dilçiliyi məktəbinin ən görkəmli nümayəndəsi, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, professor Əbdüləzəl Dəmirçizadə belə əsaslandırırdı: "Həsən Mirzəyevin yazmış olduğu "Müasir Azərbaycan dilində düzəltmə təsirli və təsirsiz feillər" adlı dərs vəsaiti çox aktual problemi əhatə edir. Dilçilik ədəbiyyatında bu problem haqqında geniş məlumat olmadığı üçün tələbələrimiz çətinlik çəkir. Ona gör də bu dərs vəsaitinin tezliklə çap olunması ali məktəblərin filologiya, ibtidai məktəb pedaqogikası və metodikası fakültəsi tələbələri üçün böyük köməkdir".

Professor Həsən Mirzəyev o alimlərdən biridir ki, elmi və ictimai fəaliyyəti vəhdət təşkil edir. Tələbələri, həmkarları, həyatda onu tanıyan kim varsa, onun vətəndaş mövqeyinin şahidi olubdur. Bunu təsdiq edən faktlardan biri barədə: o, 1957-ci ildən sıralarında olduğu Kommunist Partiyası sıralarından Sovet qoşunlarının 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakı şəhərinə daxil olaraq dinc əhaliyə qarşı qəddar cinayətlər törətdikdən dərhal sonra etiraz əlaməti olaraq çıxdı.

Böyük alim Həsən Mirzəyev hər məqamda həqiqətin və həqiqət ocağı bildiyi xalqının yanında olub. 1990-cı ildə Bakı Şəhər Sovetinin deputatı olarkən də, o həqiqətdən kənar düşmədi, iki dəfə üzvü olduğu Azərbaycan Respublikası Milli Məclisinin üzvü olanda da.

Ötən əsrin 90-cı illərininin əvvəllərində, Azərbaycan taleyüklü məqamlarını yaşayan zamanlarda da Həsən Mirzəyev vətəndaş seçimində tərəddüd etmədi, Azərbaycanın gələcəyi, onun nicatı naminə Ümummilli Lider Heydər Əliyevin yanında yer tutdu.

Həsən Mirzəyev böyük dövlət xadimi, müasir Azərbaycan dövlətçiliyinin memarı Heydər Əliyev ideyalarının təntənəsinə inanırdı. O, ömrünün sonuna qədər Azərbaycanın qəsb edilmiş tarixi torpaqları ya İlham Əliyevin diplomatiyası, ya da onun Ali Baş Komandanı olduğu Silahlı Qüvvələrinin gücü hesabına öz hüquqi varislərinə qayıdacağına inanıb. 2021-ci il sentyabrın 27-də başlayan və 44 gündən sonra xalqımızın tarixinə böyük Zəfər yazan Vətən Müharibəsi Müzəffər Ali Baş Komandan və Silahlı Qüvvələrimiz xalqımıza həmin anların sözlə ifadə edilə bilməyən ovqatını yaşatdı.

Həsən Mirzəyev Azərbaycan xalqına və onun liderinə inanırdı.

O, 2015-ci il fevral ayının 25-də vəfat etdi və Bakı şəhərindəki II Fəxri Xiyabanda dəfn eidldi.

Bu, Azərbaycan Respublikasının Əməkdar Elm Xadimi, ictimai xadim Həsən İbrahim oğlu Mirzəyevin sonuncu və əbədi yolçuluğu idi.

***Mahirə HÜSEYNOVA,***
***filologiya elmləri doktoru, professor***

# Poetik axtarışlar sorağında





**Poeziyanın nəhayətsiz üfüqlərində yeni söz demək, oxucunu düşündürən və düşünməyə vadar edən poetik fikir söyləmək əsrlər boyu sənət imtahanına çevrilib. Çünki yeni söz həmişə bədii təfəkkürün özünəməxsus ifadəsi kimi gərgin yaradıcılıq axtarışlarının sanballı, ölçülü-biçili məna yükünu daşıya-daşıya oxucu ürəyinə yol tapıb könüllərə həmdəm olur. Min illərdir ki, "gəlimli-gedimli, son ucu ölümlü dünyanın" əzəli və əbədi tərəzisində poetik söz həmişə bu funksiyanı ləyaqətlə yerinə yetirib.**

Bu ağır və ləyaqətli funksiya sözü cilalayıb, ədəbi aləmə təqdim edənlərin timsalında yalnız keçmişin və bu günün deyil, həm də gələcəyin poetik ünvanlarında özünü təsdiqləyir. Milli-mənəvi düşüncədə keçmişə köklənərək bu günümüzə bağlanıb gələcəyə körpü salan poetik mətnlər ədəbi mühitdə həm ideya-məzmun, həm də yaddaqalan sənətkarlıq xüsusiyyətləri ilə seçilir. Bu cür poetik mətnləri yaradıb geniş oxucu auditoriyası ilə müntəzəm təmasda olan ədəbi simalardan biri də Mahirə Nağıqızıdır.

Mahirə Nağıqızı çoxşaxəli yaradıcılığı ilə çağdaş Azərbaycan elmi ictimaiyyəti arasında və ədəbi mühitində özünəməxsus yeri olan alim-şairdir. Bu baxımdan onun poeziyası məzmun-mündəricə və ideya-bədii xüsusiyyətləri ilə milli-etnik və sosial-fəlsəfi düşüncələrin, vətənpərvərlik duyğularının təcəssümü kimi özünəməxsusluq kəsb edir.

Mahirə Nağıqızı bir sənətkar kimi dünyanın gərdişini, müasir cəmiyyətin axarını onun təzadlarında görüb dərk edir. Bu cür həssas müşahidənin bir qütbündə milli-etnik düşüncənin ahəngdar çalarları dayanırsa,digər bir qütbündə klassik ənənənin barlı-bəhrəli kökləri dayanır. Məhz bu xüsusiyyətlərin vəhdətində şair dərk etdiklərinin, bədii təxəyyülün sığalına gətirdiyi həqiqətlərin aydın mənzərəsini yaradır. Bu mənzərə dünyanın hamıya tanış olan ictimai görüntülərinin, həm də "hərənin içində öz davası" olan şəxsi talelərin fonunda olduqca doğma və cazibədar görünür. Başqa sözlə, sosioloji təfəkkürün analitik təhlili Mahirə Nağıqızının şeirlərində milli-fəlsəfi fikirlərin orijinal təzahürü kimi dərin təsir bağışlamaqla yanaşı, həm də dünyanın təzadlarının estetik ifadəsini də ortaya qoyur:

*Nə boyu boy vermir, nə yası olmur,*
*Hər cəfa çəkənin səfası olmur.*
*Mahirə, dünyanın ağası olmur,*
*Gələn də, gedən də qulu dünyanın.*

"Dünyanın" rədifli başqa bir qoşmasında müdrikliyin poetik təcəssümü və müdrik insanın obrazı bir-birini tamamlayaraq ahəngdar bir bütövlük təşkil edir. Bu harmonik bütövlükdə İlrik "mən"in daxili təlatümləri, təzadlı dünyanın gərdişinə poetik müdaxiləsi humanist dəyərlərin ifadəsində özünün fəlsəfi mahiyyətini orijinal və xəlqi-bədii deyimlərlə təsdiqləyir: Adını çəkdiyimiz həmin qoşmanın fikir və məna yükü, hissin və zəkanın diqtə etdikləri poetik layların zərif biçimində dolğunlaşıb üzə çıxır:

*Ağıl gedən yerdə hikkə başlayar,*
*Daş götürər, yan-yörəni daşlayar.*
*Ay daş atan, o daşları yığan var,*
*Səbri də var düz-əməlli dünyanın.*

Bənddəki daş obrazı Əli Kərimin məşhur şeirindəki daşı yada salır. Lakin Mahirə Nağıqızı bu həyati fakta-daş predmetinə tamamilə başqa poetik aspektdən yanaşır. "Daş düşmədi amma yerə, uçub getdi üfüqlərdən-üfüqlərə" (Ə.Kərim) metaforası ilə "ay daş atan, o daşları yığan var" (M.Nağıqızı) fəlsəfi düşüncə oxucunun eyni bir predmet üzərindəki diqqətini fərqli anlayışlara yönəldir. "Yerə düşməyən daşlar" insanın şeytani kəşfidirsə, "o daşları yığan" bəşər övladının yüksək humanizmə, haqqın ədalətinə inamın ifadəsidir. Bu inam kəşf, və yaxud insan icadı deyil. Bu, Ulu Tanrının yaratdığı xilqətə bəxş etdiyi əbədi bir nemətdir. Bax budur, bircə misrada əks olunan bədii-məntiqi fikir və məna yükü.

Qeyd edək ki, şair bu mövzuda ayrıca olaraq "Daş" adlı bir şeir də qələmə almışdır. "Atılan daşa ilk hədəf olan" insanın ağrıları müəllifi dərin düşüncələrə qərq edir. "Buğda dənəsi ilə vurulan Adəmin" taleyi bəşərin düçar olduğu fəlakətlərin mənbəyi kimi mənalandırılır:

*Sərhəd yaradanlar o daşlar imiş,*
*Götürüb kim atdı birinci daşı…*

Ümumiyyətlə, M.Nağıqızının poeziyasında həyatın təzadları, bu təzadların axarında lirik qəhrəmanın özünüdərk axtarışları xüsusi bir istiqamət təşkil edir.

Onun "Biləcəkmi", "Ömür-imtahan", "Bir ömrün himni", "Gəldim", "Mənlik deyilmiş" və digər şeirlərin fəlsəfi məna yükü həyata müdrik baxışın ifadəsi kimi dərin lirizmi ilə diqqəti cəlb edir. Səmimi poetik etiraflar, yaşanmış illərin acılı-şirinli günlərinə yenidən nəzər salmaqla "bu yolları keçə bilərdimmi sən olmasaydın?" sualı lirik "mən"in özünüdərk axtarışı kimi mənalı və ibrətamizdir. Bu sual ritorik səciyyə daşımır, müəllif etirafının səmimiyyətini və gerçəkliyə münasibətini ifadə edir. Bu qəbil şeirlərlə təfərrüatlı detallar deyil, yığcam bədii ştrixlər, lakonik cizgilər üstünlük təşkil edir ki, bu da həmin şeirlərdə əks oxunan fikirlərin effektliyində başlıca rol oynayır. Məhz buna görədir ki, Mahirə xanımın geniş ümumiləşdirmə gücünə malik poetik qənaətləri inandırıcı, cazibəli və təsirlidir:

*Özümüz yaratdıq, başqa cür heç kəs,*
*Min baxa, yanından ötər bu dünya.*
*Udduğum havasan, çəkdiyim nəfəs,*
*Səndən o tərəfə bitər bu dünya.*

Mahirə Nağıqızı o şairlərdəndir ki, onun lirik qəhrəmanı daim özünə hesabat verib qəlbinin səsini dinləyə-dinləyə "yaşanmış illərim imtahan imiş" qənaətini əminliklə söyləyə bilir. Yuxarıda qeyd etdiyimiz kimi, bu cür səmimi etiraflar ümumi sözlərlə deyil, səciyyəvi detalların təcəssümündə obrazlaşır. Bu xüsusiyyət həyati həqiqətlərə bəsirət gözü ilə baxıb onun gözəllikləri ilə yanaşı, mənəvi eybəcərliklərin və yaramazlıqların da olduğuna ürəkdən təəssüflənən, özünü bu cür yaramazlıqlardan uzaqda görmək istəyən lirik "mən"in obrazında daha qabarıq şəkildə nəzərə çarpır:

*Bir sözə yüz cürə and-aman olar,*
*Düzə ox, yalana ərməğan olar,*
*Verməyə nə qədər imtahan olar...*
*Allahım, bu dünya mənlik deyilmiş.*

"Mənlik deyilmiş" adlı şeirdə müəyyən qədər pessimist ovqat duyulsa da, əslində bu ovqat gerçəkliyin ifadəsi kimi həyatın özünü əks etdirir. Başqa sözlə, həyat bütün ziddiyyətləri, təbii axarı ilə təsvir və təqdim olunur. İnsan bir fərd kimi özünün sosial mahiyyətini cəmiyyətdə tapıb təsdiqləyir. M.Nağıqızının lirik qəhrəmanı həyat hadisələrinə fəal müdaxiləsi, fərdi-milli yaşantıları ilə ləyaqətli bir mövqedə dayanır. Az əvvəl qeyd etdiyimiz pessimist duyğuların bir sıra məqamlarda bədiiləşməsi təbii və inandırıcı görünür. Bu xüsusiyyət lirik qəhrəmanın fitrətində olduğu üçün o, "dərdləri doğma balası kimi" əzizləyə-əzizləyə qəbul edir. Bu baxımdan Mahirə xanım özündən əvvəlki sələfləri ilə eyni poetik-fəlsəfi və sosial-estetik mövqedə dayanır:

*Kəbəni dolandım, Məkkəni gəzdim,*
*Haqqın işığında özümü görəm.*
*Mən belə bilməzdim, belə bilməzdim,*
*Allahım, dərdimlə bəxtəvərəm mən.*

Ən çətin anlarda belə haqdan gələn dərdləri təbii qəbul edib onu ruhunda daşımaq yüksək zəka sahiblərinə və zəngin mənəviyyata malik insanlara məxsusdur. Bu özünəməxsusluq çağdaş dövrümüzdə və sosial təfəkkürdə Mahirə xanımın yaratdığı obrazın kimliyini təmsil edərək uğurlu yaradıcılıq axtarışlarında daha da zənginləşir.

M.Nağıqızının obrazlar sistemində ana surətinin ümumiləşmiş cizgiləri fərdi-mənəvi duyğularla birləşərək poetik bir harmoniya təşkil edir. Bu harmoniyada ana obrazının əzəmətini və müqəddəsliyini, övlad sevgisinin zərifliyini kövrək misraların və metaforik düşüncələrin özünəməxsus ifadəsində aydın görmək olar. Təsadüfi deyildir ki, müəllif özünün son kitablarından birini "Anamın kitabı" (2025) adlandırmışdır. Kitabda toplanmış şeir və hekayələr, Nazlı ananın dilindən qələmə alınmış xalq deyimləri, ibrətamiz rəvayətlər və məsəllər həyatın ağır sınaqlarından dəyanətlə çıxan müdrik bir ağbirçəyin parlaq obrazını canlandırır. Bu qəbil şeirlərldə sənətkar təxəyyülündən doğan poetik silsilə ifadələr avtobioqrafik notlarla dolğunlaşaraq orijinal və həyati məna kəsb edir. Bu baxımdan Mahirə xanımın yaradıcılıq tərcüməyi-halında müxtəlif illərdə qələmə aldığı şeirlər sanki vaxt ölçüsü tanımır, zaman məfhumunu aşıb keçir. Fikrimizcə, bu cəhət həmin şeirlərin ümumi ruhunu əks etdirən təbii bir haldır. Çünki ana-övlad sevgisi heç bir zamana və məkana sığa bilməz. Şairin bu silsiləyə daxil olan şeirlərində müxtəlif zaman kəsimlərinin həmin ovqatı əks etdirməsi məhz bu xüsusiyyətlə bağlıdır. "Nazlı-nazlı", "Anamın", "Bir söz de", "Nağılın yolu", "Onun daş nağılı" və digər şeirlərdə təsvir və təcəssüm olunan ana obrazını müəllifin şəxsi duyğularının bədii əks-sədası kimi qəbul etmək qətiyyən düzgün deyildir. Bu şeirlərdə poetik ümumiləşdirmənin çalar və üslubları o qədər güclüdür ki, Nazlı ana obrazı hər bir oxucuya doğma və məhrəm görünür. Bütün anaların qurub-yaratmaq eşqi, övladları yolunda əritdikləri ömür bu obrazın timsalında yüksək sənətkarlıqla əks olunmuşdur:

*Atamla yanaşı daş qaldırardı,*
*Deyərdi bu daşlar ocaq daşıdı.*
*Bezmədi, qəlbində nə gücü vardı,*
*Anam sinəsində ocaq daşıdı.*

Ümumiyyətlə, ana obrazını canlandıran bədii mətnlərin səciyyəvi xüsusiyyətlərindən biri də kövrək və həzin ruhun qabarıq ifadəsidir. Şairin "Nazlı-nazlı" gəraylısı (müəllifin bu adlı iki gəraylısı var- A.A.) o qədər həzin ovqatla yüklənmişdir ki, oxucu sözün sehrinə valeh olur. Ana obrazının təmasda olduğu təbiət predmetləri ilə həmahəng təsviri incə biçimli misralarda poetikləşərək xoş təsir bağışlayır:

*Ana, nədəndi sən gedən,*
*Yollar axar nazlı-nazlı.*
*Yolların üstündə bitən*
*Güllər baxar nazlı-nazlı.*

*Dərələr səngər hörgülü,*
*Çaylar mələkdi-müzgülü.*
*Dağlar sinəsinə gülü,*
*Nə cür taxar nazlı-nazlı.*

Dogrudan da, təbiətin əsrarəngiz mənzərələri Uca Tanrının yaratdığı mələklərlə- Analarla daha da gözərləşir. Bu gözəlliklərin ucalığında və saflığında Mahirə Nağıqızının yeni yaradıcılıq uğurlarına dönə-dönə imza atacağı şübhəsizdir.

***Avtandil AĞBABA***
***Filologiya elmləri doktoru***
***Əməkdar jurnalist***

# 65 YAŞIN ZİRVƏSİNDƏ: ƏSL ZİYALI VƏ ŞAİR ÖMRÜ

**Ömür insana Ulu Tanrı tərəfindən bəxş olunmuş ən qiymətli əmanətdir. Bu dünya isə verilmiş bu əmanəti sınamaq üçün ağlı-qaralı, enişli- yoxuşlu bir yoldur. Bu yollardan ən ucası isə elm yoludur. Çünki elm yolu insanı haqqa, ucalığa aparır. Yalnız bu yolun istisinə-soyuğuna, çətinliklərinə dözənlər haqqa qovuşurlar. Məncə, elm sözü ilə əməl sözü məna və mənşəyinə görə də qohum sözlərdir. Elə bu səbəbdən deyiblər ki, elm olmasa, əməl də olmaz. Bu da həqiqətdir ki, hər hansı bir əməlin kökündə elm olanda o daha faydalı olur. Demək olar ki, bütün ömrünü elmə, təhsilə, bədii yaradıcılığa həsr edən Mahirə Hüseynova elm aləmində kifayət qədər tanınan ziyalılarımızdandır. O, filologiya elmləri doktoru, professor, Əməkdar müəllim, Beynəlxalq Elmlər Akademiyasının fəxri akademiki, Azərbaycan Dövlət Pedaqoji Universitetində Beynəlxalq Əlaqələr üzrə prorektor vəzifəsində çalışır.**

Deyirlər elmin vətəni olmur, amma hər bir ziyalının, elm adamının vətəni var. Bu gün elm aləmində öz sözünü deyən Mahirə xanım getdiyi hər yerdə azərbaycanlı olması ilə fəxr edir. O, Dünya Söz Akademiyasının fəxri akademiki, Turan Akademiyasının Türk Dünyası Alim Qadınlar Şurasının Sədridir. Tanınmış alim 27 elmi kitab və monoqrafiyanın, dərs və metodik vəsaitlərinin, fənn proqramlarının, 15 şeir kitabının, 500-dən artıq elmi məqalənin müəllifidir. Alimin 50-dən artıq elmi əsəri xarici ölkələrdə nəşr edilmişdir. Həmçinin o, bir neçə beynəlxalq mükafatların laureatıdır. 10-dan artıq jurnalın təsisçisi, baş redaktoru və üzvüdür. Professor Mahirə Hüseynovanın bilavasitə rəhbərliyi ilə neçə-neçə elmlər namizədi, elmlər doktoru elm aləminə vəsiqə alıb. Onu tanıyanlar da təsdiq edərlər ki, Mahirə Hüseynova Azərbaycan dilçilik elmi sahəsində xüsusi məktəb yaratmışdır. Cəsarətlə deyə bilərik ki, bu gün Azərbaycan elmində bir Mahirə Hüseynova məktəbi var. Onun dilçilik elminə gətirdiyi yeniliklər bunu söyləməyə əsas verir.

Noyabr ayının 4-də ömrünün çox hissəsini elmə, bədii yaradıcılığa həsr edən filologiya elmləri doktoru, professor Mahirə Hüseynovanın 65 yaşı tamam olur. 65 yaş - ömrün zirvəsi, kamillik, müdriklik çağıdır. 65 yaş təkcə rəqəm deyil, geridə qalan illərin, çəkilən zəhmətlərin, qazanılan uğurların, yazılan sözlərin, yaşanan duyğuların sükutlu zirvəsidir, hesabatıdır. Hər bir yubiley sanki insanın hesabat dövrüdür. Çünki insan bu yubiley vaxtlarında özündə bir məsuliyyət hiss edir. Ömrün astanasında, yolayrıcında dayanıb ömür kitabını bir-bir vərəqləyir. Sanki öz qarşısında, cəmiyyət qarşısında hesabat verir. Bir növ illərlə tikdiyi mənəvi saraya nəzər salır… Mən bu ömrü necə yaşadım? Nə itirdim, nə qazandım? Bu gün Mahirə xanımın keşməkeşli ömür yoluna nəzər saldıqda biz də şahidi oluruq ki, " İnanma, Mahirə, kim desə suçdu, Həyat savaşıymış, ötən günlərim" - deyən şair ömrünü hədər yaşamayıb. Bir də ki, vətənə cismən, ruhən bu qədər qırılmaz tellərlə bağlı olan insan heç vaxt ömrünü hədər yaşaya bilməz. "Vətən" adlı şeirində də yazdığı kimi:

*Bitər sərhədlərin bu yer üzündə,*
*Qəlbimdə sərhədin nədən bitmədi?*
*Gəmisən, üzürsən eşq dənizimdə,*
*Sənə məhəbbətim, Vətən, bitmədi.*

Gördüyümüz kimi, Vətən anlayışı Mahirə xanımın yaradıcılığında özünəməxsus orijinal deyimlərlə tərənnüm olunur. Toxunulmazlıq simvolu kimi bir daha təsdiqlənir. Həm də o, təkcə vətən torpağını tərənnüm etmir, bu torpağın qədrini bilməyə, onu qorumağa, ona dikilən yad gözlərə qarşı amansız olmağa çağırır.

Həqiqətən də, bir millətin ziyalısı, alimi, müdrik ağsaqqalı nə qədər çox olarsa, həm də sözü ilə, əməli ilə xalqına xidmətdə olarsa, o millətin xoşbəxt gələcəyi, işıqlı sabahı var, xoş o millətin halına. Çünki ziyalı xalqın görən gözü, düşünən beyni, danışan dilidir. Bir milləti millət kimi tanıdan əlbəttə ki, onun ziyalısıdır. Mahirə xanım həm sosial şəbəkələrdə, həm televiziya kanallarında, elmi-ictimai fəaliyyətində vətənin sədaqətli qızı, bu vətənin əsl ziyalısı olduğunu əməli, işi ilə sübut edir. Təkcə elə bunu xatırlatmaq kifayətdir ki, o, Qərbi Azərbaycanın azərbaycanlıların yaşayış məskəni olduğunu bütün dünyaya bəyan etdi.

Mahirə xanım həyatda necə sadədirsə, bədii yaradıcılığında da oxucusu ilə çox sadə, səmimi, el dili ilə desək, ürək dilində danışmağı bacarır. Yəni ürəkdən qopan hər kəlmə, hər söz səmimidirsə, hissin duyğunun ifadəsidirsə, o zaman şair oxucunu çəkəcək, düşündürəcək, müəlliflə oxucu arasında bir ab hava, bağlılıq, körpü yaranacaq. Mahirə xanım da həyatdakı hadisələri görür və bu hadisələr haqqında ürək yanğısıyla danışır. Yaxşı bir məsəl var deyir, yalanın dili qışqırıq, gerçəyin dili hıçqırıqdır. Mahirə xanım oxucuya fikrini qışqıra -qışqıra, hay küylə, zorla deyil, səmimiyyətlə, duyub düşündüklərini, qəlb çırpıntılarını, ürək döyüntülərini sanki pıçıltıyla çatdırır:

*Dinib dillənmədim ki mən,*
*Pıçıltımnan, lal yığıram.*
*Tanrım, göndərdiyin dərdi*
*Zənn elədim bal, yığıram.*

O, ürəyini oxucusunun qarşısında bir süfrə kimi açır və deyir belədir. Ancaq beləni də elə tərzdə deyir ki, oxucu ona inanır, onun dərdinə şərik olur. O, sözlərini elə səmimiyyətlə, ürək yanğısı ilə deyir ki, sanki onun ürəyinin istisi, odu, alovu oxucunun da ürəyini isidir, alovlandırır.

Mahirə xanım çox nikbin, mübariz ruhlu şairdir. Dərd əlindən acizləşməyən, əksinə, dərdi özünün ən yaxın dostu, sirdaşı sayan, dərdsiz günlərini ömrünə saymayan, bir gün belə dərdsiz qalmadığını, doğulandan dərdlə qoşa yarandığını söyləyir . Hətta bəzən dərd əlindən yuxusuz qalıb ürəyi köz-köz olsa da, gözlərinin güldüyünü poeziya dili ilə belə ifadə edir :

*Gecələri şirin-şirin yatmadım,*
*Dərdi yarı-yarı böldü gözlərim.*
*İçim yandı, alov ərşə dayandı,*
*Ovutdu dərdimi, güldü gözlərim...*

Yaxut da başqa bir şeirində dediyi kimi:

*Axan göz yaşımdı, dəymə,*
*Mənə daş-qaşımdı, dəymə.*
*Dərd sağlıq həmdəmimdi,*
*Ölsəm, başdaşımdı, dəymə.*

Dərdi bundan gözəl ifadə etmək mümkün deyil. Həm də bu fkir poeziyamızda yeni, poetik bir fikirdir. Mənaya baxın, sağlığımda həmdəmim, öləndə başdaşımdı. Bu yerdə Ulu Yunis Əmrənin bir şeirini xatırlatmaq yerinə düşərdi:

***Dərdimi demərəm dərdsiz insana,***
***Dərd çəkməyən dərd qədrini bilənməz,***
***Dərdim mənə dərman imiş sən demə,***
***Heç bir zaman gül tkansız qalammaz.***

Gördüyünüz kimi, mövzu oxşardı, amma yanaşma müxtəlifdir. Mahirə xanım da işlənmiş mövzuya müraciət edir , amma o mövzuya yeni məna, yeni nəfəs verməyi bacarır, bir növ, mövzunu özününküləşdirməyi bacarır. Həqiqətən də, əsl şeir dərddən yaranır. Dərddən yaranan şeirin ömrü də uzun olur. Şeir dərdin dilidir, göz yaşlarının sözə çevrilmiş formasıdır. Mahirə xanımın da şeirləri dərddən yaranıb. Onun şeirlərində dərdin ünvanı Vətəndir, sinəsinə dağlar çəkilən Qarabağ dərdiydi, didərginlik dərdiydi, düşmən tapdağı altında inləyən torpaqlarımızın harayıydı, iki yerə bölünmüş bir xalqın fəryadıydı, bu gün Qərbi Azərbaycan dərdidir...

Mahirə xanım sifahi xalq ədəbiyyatını dərindən bilən və yaradıcılığında bu janrın müxtəlif nümunələrindən yerli yerində, zərgər dəqiqliyi ilə işlətməyi bacaran şaidir. O, yüzlərlə bayatının müəllifidir. Bu bayatıların hər sətrindən, hər bəndindən sanki Vətənin ətri, torpağın təravəti baş qaldırır:

***Susdum, dilim lalıymış,***
***Kəndim , havam balıymış.***
***Gəzdim hər yanı gördüm,***
***Cənnətim Xalxalymış.***

Danılmazdır ki,kövrək duyğuları olmayan insan qəlbin dərnliklərindən süzülüb gələn dərin hisslərin ifadəsi olan bayatı kimi janra köklənə bilməz. Mahirə xanımın bayatıları da bu kövrək duyğulardan bəhrələnib:

***Dəniz qırağı sərin,***
***Meh oynadır tellərin.***
***Keçib gələ bilmirəm,***
***Dalğa çox, suyu dərin.***

Mahirə xanım tariximizin ən dəhşətli yaddaşların dörd misrada elə poetik obrazlarla dilə gətrir ki, bunları oxuyub kövrəlməmək mümkün deyil.Bu yerdə akademik, folklorşünas alim Teymur Bünyatovun fikrini xatırlatmaq yerinə düşərdi. "Bayatı ayrı-ayrı sinədəftərlərin sinəsindən qopan, dövrün, zamanın sınağından çıxan, könüllərdə yuvalanan, xalqlaşan, xalqın adından əbədiləşən mənəviyyat abidəsi, beşik nəğməsi, ana laylasıdır"

***Dərdi küncə qoyalar,***
***Bircə-bircə qoyalar.***
***Ürək torpaq deyil ki,***
***Bir il dincə qoyalar.***

Bu cür ifadələri işlətmək üçün mütləq xalqın tarixini, soykökünü, milli adət ənənəsini, ən əsası folklorunu, həyat tərzini dərindən bilməlisən, bir sözlə, xalqı tanımalısan. Mahirə xanımın şeirlərində M.Cəlilin dili ilə desək "Anamın kitabından süzülüb gələn sözlər" hakimdir.

Kimə məxsusluğunu dəqiq xatırlaya bilmədiyim müdrik bir deyimdə deyildiyi kimi: "Xarakterdə, davranışda və ümumiyyətlə, hər bir işdə ən gözəl şey sadəlikdir". 65 yaşın zirvəsində olan Mahirə xanım da sadəliyi özünün həyat kredosu kimi qəbul edib. Elmin yüksək zirvələrinə nail olsa da, həyatda öz sadəliyi, səmimiyyəti və təvazökarlığı ilə bir çoxlarına nümunə ola biləcək ziyalı alim, istedadlı şairdir. Düşünürəm ki, məhz bütün bu dəyərlərinə görə professor Mahirə Hüseynova öz şərəfli və uğurlu həyat yolu ilə gənclər üçün örnək məktəbidir.

Geniş təqdimatına o qədər də ehtiyac duymadığım filologiya elmləri doktoru, professor Mahirə xanım özünü cəmiyyətə bu cür təqdim edib. Əgər belə bir şərt qoyulsa ki, bir cümlə ilə Mahirə xanımı təqdim edin. Düşünürəm ki, əksəriyyəti bu fikri söyləyər: "Mahirə xanım sadə, səmimi insan, vətənpərvər ziyalıdır" Onun Vətən, xalq qarşısında bu qədər xidmətlərinə baxmayaraq, özünü heç vaxt öymür, əksinə, bütün ömrünü xalqına həsr edən bunu özünün vətəndaşlıq borcu sayan Mahirə xanım elmimizin sabahı naminə bu gün də yorulmadan çalışır. Qədim Yunan filosofu Sokratın dediyi kimi "Alimin biliyi o, təvəzökar olanda üzə çıxır". Bu cür ali insani keyfiyyətlərə malik olan Mahirə xanım da əsl alim ömrü yaşayıb, təvəzökarlıqla özünü vətənin atılmış bir daşı hesab edir:

***Yenə Mahirəni dara çəkirsən.***
***Hardan gətiribsən, hara çəkirsən?***
***Bilirəm, qəlbində qala tikirsən,***
***Atılmış bir daşam, hör daşa, qalım.***

Mahirə xanım, Siz elmi, bədii yaradıcılığınızla, ictimai-pedaqoji fəaliyyətinizlə, Azərbaycan qadınına xas olan sədaqət və ismətinizlə elə bir qala tikmisiniz ki, hələ bundan sonra neçə-neçə nəsillər o qalaya sığınacaq.

Əziz Mahirə xanım! Mən Sizi qaladan çox uca, dərin köklü palıd ağacına bənzədirəm. Bilirsiniz ki, palıd ağacı bütün ağacların şahı, hər fırtınaya, tufana dözəni sayılır. Siz də 65 illik həyatınızda bütün fırtınalara, dərdlərə, bəzən təyziqlərə, bəzən təqiblərə mərdliklə, mətanətlə dözmüzünüz, bir sözlə, bizim yaddaşımızda palıd rəmzi kimi qalıbsınız. İnanıram ki, bundan sonra da belə qalacaqsınız.

Bildiyimiz kimi, Mahirə xanımın yaradıcılığı çoxşaxəlidir. Azərbaycan dilçiliyi, ədəbiyyatşünaslıq,türkologiya, dilimizin metodika məsələləri, publisistika, bədii yaradıcılıq... Heç şübhəsiz ki, bir məqalədə Mahirə xanımın zəngin, bədii yaradıcılıq dünyasını əhatə etmək qeyri- mümkündür. Ona görə də mən fikrimi xalq şairi Zəlimxan Yaqubun "Qocalasan" adlı şeiri ilə tamamlamaq istəyirəm:

***Səni deyib gələ quşlar yuvadan,***
***Adın misal qala dədə babadan.***
***Vətəndən, torpaqdan, eldən, obadan***
***Belə güc alasan, güc alanda da.***

***Zəlimxan, dağlara təpə gülməyə,***
***Qaya parçalanıb, daş tökülməyə.***
***Başa qar yağsa da, bel bükülməyə,***
***Belə qocalasan, qocalanda da.***

Ömrünün müdriklik çağını gənclik enerjisi ilə yaşayan Mahirə xanıma bütün doğmalarının, sevdiklərinin, onu sevənlərin əhatəsində sağlıqlı ömür arzulayıram! Yubiley yaşınız mübarək, Mahirə xanım!

İnşallah, 70 illik yubileyinizi də belə gümrah, gözəl ovqatla, könül xoşluğu ilə NDU ailənizlə birgə doğma, əbədi beşiyimiz olan Qərbi Azərbaycan torpağında, Zəngəzurda qeyd edək!

Yubileyiniz mübarək, əziz Mahirə xanım!

*Aypara BEHBUDOVA*
*Filologiya üzrə fəlsəfə doktoru, dosent*
*Naxçıvan Dövlət Universiteti*

# Professor Mahirə Hüseynova Şamaxıda tələbələrlə görüşüb

**Şamaxı Rayon İcra Hakimiyyəti, ADPU və universitetin Şamaxı filialının, eləcə də Dağlıq Şirvan Regional Mədəniyyət İdarəsinin birgə təşkilatçılığı ilə Şamaxı Rayon Mədəniyyət Mərkəzində filologiya elmləri doktoru, professor, ADPU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru, tanınmış şairə Mahirə Nağıqızının Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şamaxı filialının tələbələri ilə görüşü keçirilib.**





Tədbir həm görüş, həm də ədəbi-bədii məzmunlu yaradıcılıq gecəsi formatında təşkil olunub. Tədbirdə Milli Məclisin deputatları, ADPU-nun və Şamaxı filialının professor-müəllim heyəti, tələbələr, məzunlar və rayonun ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbirdə çıxış edən Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov, ADPU Şamaxı filialının direktoru, dosent Tünzalə Yusifova və Milli Məclisin deputatı Hikmət Babaoğlu Azərbaycanın, o cümlədən Şamaxının poeziya mühitindən, ədəbiyyatın cəmiyyətin inkişafında rolundan, şairə Mahirə Nağıqızının Azərbaycan ədəbiyyatına, elm və təhsilin inkişafına verdiyi dəyərli töhfələrdən, ziyalı mövqeyindən və gənclərin mənəvi dünyasının formalaşmasındakı xidmətlərindən danışıblar.

Tədbirdə Əməkdar artistlər Elnur Zeynalov, Elnarə Abdullayeva, Güllü Muradova, "Cahan" muğam qrupu və "Eşq" ansamblı şairənin şeirlərinə bəstələnmiş mahnıları ifa ediblər.

ADPU Şamaxı filialının tələbələri Mahirə Nağıqızının şeirlərini səsləndirib. Müəllif tələbələrin çoxsaylı suallarını cavablandırıb.

Görüşün sonunda Mahirə Nağıqızı tələbələrə təhsil və yaradıcılıq fəaliyyətlərində uğurlar arzulayaraq, gənclərin mənəvi-estetik tərbiyəsində ədəbiyyatın və müəllim əməyinin rolundan danışıb.

# "Qəlbi azərbaycanlı, Qərbi azərbaycanlı!"

***Azərbaycan Respublikasında "Konstitusiya və Suverenlik İli" çərçivəsində Pedaqoji Universitetin (ADPU) Quba filialında Prezident təqaüdçüsü, Azərbaycan Respublikasının Əməkdar müəllimi, Azərbaycan Dövlət Pedaqoji Universitetinin beynəlxalq əlaqələr üzrə prorektoru, Qərbi Azərbaycan İcması İdarə Heyətinin üzvü, filologiya elmləri doktoru, professor Mahirə xanım Hüseynovanın anadan olmasının 65 illik yubileyi və elmi-pedaqoji və ədəbi fəaliyyətinə həsr olunmuş "Qəlbi azərbaycanlı, Qərbi azərbaycanlı!" mövzusunda təntənəli ədəbi-bədii gecə keçirilib.***





Tədbirdən əvvəl Ulu öndər Heydər Əliyevin Quba şəhərində yerləşən abidəsi ziyarət edilib. Filialda qarşılanma zamanı tələbələr qonaqları Qubada yaşayan azsaylı xalqların dilində salamlayıblar.

Filialın böyük zalında keçirilən tədbirdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra ümummilli lider Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda, Vətən yolunda canlarını fəda edən bütün şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra professor Mahirə xanım Hüseynovanın mənalı həyat yolu və fəaliyyətini əks etdirən videoçarx nümayiş olunub.

İştirakçıları səmimiyyətlə salamlayan ədəbi-bədii gecənin aparıcısı Azər Süleymanlı qeyd edib ki, professor Mahirə xanım Hüseynovanın yaradıcılığına həsr olunmuş bu tədbirin gənclərin milli-vətənpərvərlik ruhun tərbiyə almasında müstəsna rolu vardır.

Sonra Quba rayon İcra Hakimiyyətinin Başçısı İlqar Mahmudov çıxış edərək professor Mahirə Hüseynovanın elmi, bədii və ictimai fəaliyyətinin ayrı-ayrı istiqamətlərinə toxunaraq diqqətə çatdırıb ki, şairənin bütün yaradıcılığının araşdırılması və təbliği gənc nəsildə vətənpərvərlik ruhunun inkişaf etdirilməsi baxımından əhəmiyyətlidir. Cənab İlqar Mahmudov həm də qeyd edib ki, Mahirə xanım Hüseynova 2015-ci ilin mayında ADPU-nun Müasir Azərbaycan dili kafedrasının dosenti, dekabrında isə müdiri olmuş, 2017-ci ildə filologiya üzrə elmlər doktoru elmi dərəcəsini almışdır. 1 il sonra isə ADPU-nun Müasir Azərbaycan dili kafedrasının professoru seçilmişdir. 2018-ci ildən ADPU-nun "Filologiya" fakültəsinin dekanı vəzifəsində çalışmışdır. Hazırda ADPU-nun Beynəlxalq əlaqələr üzrə prorektorudur. Mahirə Hüseynova həmçinin Prezident təqaüdçüsü, "Qızıl qələm" və "İlin alimi" Media Mükafatı laureatıdır. "Bütün bunlar isə təsadüfi deyil, gərgin elmin və zəhmətin nəticəsidir" deyə Cənab Başçı qeyd etmişdir.

Quba filialının direktoru, fizika elmləri doktoru, professor Yusif Alıyev çıxışında qeyd edib ki, professor Mahirə Hüseynova bütün dövrlərdə Azərbaycanın gözəlliyini, vətənimizin bütövlüyünü, Qərbi Azərbaycan mövzusunun milli əhəmiyyətini diqqətdə saxlayıb. Filologiya elminə böyük töhfələr vermiş, Qərbi Azərbaycanın azman kişilərindən olan, el ağsaqqalı, professor Həsən Mirzənin həyat məktəbində şəxsiyyət, ziyalı, pedaqoq, alim kimi yetişən bu istedad sahibi hər zaman öz yoluna, həqiqətlərinə, adətinə, törəsinə, tərbiyəsinə səmimi və sədaqətli olub. Ümummilli lider Heydər Əliyevin dövlətçilik ideyalarına sədaqət və ehtiram bu ailə və onun doğma ətrafında hər zaman milli prinsip olaraq qorunub. Mahirə Nağıqızı xalqın ağrı-acısını, müsibətlərini, faciələrini, yurd nisgilini duyğusallığı ilə ruhuna çəkərək vətən sevgisi, qeyrəti ilə milli-mənəvi ruhu sağaltmaq naminə dağlara, daşlara, çaylara, çiçəklərə ünvanlı sözləri öz şeirlərində ustalıq və peşəkarlıqla elə yoğurub yapır ki, sanki vətənin yaralarını sağaltmaq üçün məlhəm hazırlayır. Yəni onun şeirlərində, adətən çərəsiz dərd yoxdur. Dərd semantikasına görə, onun bu qəbildən olan şeirləri poetik kanonlarla, bəşəri bədii normativlərlə səsləşir. Bunlar gözəl, professional aforizm səviyyəsindədir. Mahirə xanımın bəhs etdiyimiz şeirləri bir mənəvi sərvət kimi, xalqımızın əqli-hissi istifadəsinə yarayır, eyni zamanda ədəbi ünsiyyətin kütləviləşməsinə təsir göstərir. Direktor həm də qeyd edib ki, Mahirə xanım Hüseynova Qərbi Azərbaycan ərazisində mövcud olan toponimlərin türk-Azərbaycan etnoyaddaşının ən möhtəşəm abidəsi fonunda arxaik etnolingvistik mənzərəsinin hələ də kifayət qədər öyrənilmədiyini nəzərə alıb. Professor Vətənimizin gözəlliyinə, Azərbaycanın füsunkarlığına həsr etdiyi şeirlər dillər əzbəridir. Azərbaycanın görkəmli bəstəkarları və müğənniləri bu mövzulara müraciət ediblər.

Milli Məclisin deputatları - professor Əlibala Məhərrəmzadə, Sadiq Qurbanov, Afət Həsənova, Vüqar Rəhimzadə, Müşfiq Məmmədli, Məlahət İbrahimqızı, Fatma İldırım, Tamam Cəfərova da öz növbələrində qeyd ediblər ki, Mahirə xanım Hüseynova mənsub olduğu soykökün təməlləri üzərində alim kimi, idarəedici kimi professor Mahirə Hüseynova, ictimai xadim, şairə kimi isə şairə Mahirə Nağıqızı olaraq tanındı və tanıyanların da sevimlisinə çevrildi. Bu sevgini və dəyəri isə özünü tanıyanlar haqq edə bilərlər. Bir anı bir ömrə, bir ömrü də bir ana sığdırmağı bacaran dəyərli elm, ədəbiyyat insanına, yaradıcı şəxsiyyətə can sağlığı, xoşbəxt həyat, aydın səma arzulayıblar. Bildiriblər ki, söz ustadının qarşısında bütün sözlər acizdir. Çünki Mahirə xanımın sözə dəyəri soykökündən, anasından, dayısı Həsən Mirzədən gəlir, bu səbəbdən də sevilən şairəmizi təəccübləndirmək müşkül məsələdir. Biz onu sevənlər olaraq sadəcə, hörmət və etimadımı nümayiş etdirə bilərik.

AMEA-nın Mərkəzi Elmi Kitabxanasının müdiri, texnika elmləri doktoru professor Hüseyn Hüseynov, ADPU-nun "Türk araşdırmaları" elmi-tədqiqat mərkəzinin direktoru, filologiya elmləri doktoru, professor Elman Quliyev, tanınmış ictimai xadim hüquqşunas Səməd Vəkilov, AYB-nin Quba bölməsinin sədri görkəmli şair Ramiz Qusarçaylı, filialın baş müəllimi Eyvaz Şeydayevin çıxışlarında professor Mahirə xanım Hüseynovanın həyat və fəaliyyətinin ayrı-ayrı istiqamətlərinə dair fikir və mülahizələrini bölüşüblər.

Sonra professor Mahirə xanım Hüseynova belə bir könül oxşayan tədbirin təşkilinə görə, rayonun və filialın rəhbərliyinə səmimi minnətdarlığını ifadə edib. Ümummilli lider Heydər Əliyevin xilaskarlıq missiyası sayəsində əzəmət tapan müstəqilliyimiz, Müzəffər Ali baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qalib Azərbaycan Ordusunun qazandığı rəşadət və sonrakı qəhrəmanlıqlar nəticəsində ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunmasını dövlətçilik tariximizin şanlı səhifəsi kimi dəyərləndirən professor bildirib ki, Azərbaycanda yaşamaq və yaratmaq böyük bəxtiyarlıqdır. Professor Mahirə Nağıqızı qeyd edib ki, gənclərin inkişafında əməyimizin olması bizləri sevindirir, bizlər Həsən Mirzəyev kimi dəyərli alimlərimizdən öyrəndiklərimizi gənc nəslə ötürməliyik. Həmçinin Mahirə xanım Nağıqızı onu da bildirib ki, bu gün onun alim, şairə və insanların çətin və xoş günündə hər zaman yanlarında olan bir şəxsiyyət kimi yetişməsinin səbəbi anası Nazlı xanımdır. Bu səbəbdən də əsərlərinin çox hissəsində ana məhəbbəti, ana zəhməti ön plandadır. Daha sonra "Onun daş nağılı" adlı şeirini səsləndirən Mahirə xanım Hüseynova əbədiyyətin başlanğıcını Ana və Vətən sevgisində gördüyünü diqqətə çatdırıb. Çıxışın sonunda professor Mahirə Hüseynova bir daha tədbirin belə yüksək səviyyədə hazırlığına görə xüsusi olaraq filialın direktoru professor Yusif Alıyevin adını çəkərək, onun da elm və tərbiyə görmüş ailədən çıxdığını, buna görə də elmin və alimin qədrini bildiyini, həmçinin kökündən gələn təvazökarlığa sahib olduğunu da qeyd edib. Ədəbi-bədii tədbirdə şairə Mahirə Hüseynovanın poeziya nümunələri əsasında hazırlanmış bədii hissə də yer alıb.

Əməkdar artistlər Gülüstan Əliyeva, Mətanət İskəndərli və Elnur Zeynalov, tanınmış xanəndələr Leyla Rəhimova, aşıq Zülfiyyə İbadova, qiraətçi Pünhan İsmayılov, filialın tələbəsi Günəş İskəndərov şairənin sözlərinə bəstələnmiş mahnıları ifa edib, şeirlərini söyləyiblər. Tələbələr tərəfindən ifa edilən rəqslər də maraqla qarşılanıb.

Tədbir gənclərin suallarının cavablandırılması ilə davam edib.

**Təsisçi və Baş redaktor**
**Mahirə Hüseynova**
***Baş redaktorun müavini***
**Leyla Calalova**
***Məsul katib***
**Möhübbət Məmmədov**

Redaksiya heyəti:
**İbrahim Bayramov**
**Könül Həsənova**
**Səməd Vəkilov**
**Fərrux Rüstəmov**
**Cəlal Allahverdiyev**

Azərbaycan Respublikası Medianın İnkişaf Agentliyi Media Reyestri Şəhadətnaməsi
Qeydiyyat:
№: CA61EF8114733BA

**Ünvanımız:**
Bakı şəhəri, Ü.Hacıbəyov küçəsi 68

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində ofset üsulu ilə çap olunmuşdur.
**Tiraj: 200 Sifariş: 2274**